# Yaqub

kitabı əsasında 10 Bibliya məşğələsi

XAHİŞ EDİRİK, BUNA DİQQƏT YETİRİN!
Bu dərslərin seriyasına aid olan Power Point prezentasiyalarının CD-diskini , eləcə də rəngli əyani vəsaitləri və iş vərəqələrini siz BUM-nin ofisində əldə edə bilərsiniz. BUM ofislərinin siyahısını və Avropada olan internet mağazalarını  www.teachkids.eu/az saytında  "Ölkələr" düyməsini basaraq tapa bilərsiniz.

Copyright © 2004 European Child Evangelism Fellowship®
Bütün hüquqlar qorunur. Icazəsi ilə istifadə olunur.
Yalnız şəxsi, xidməti və qeyri-kommersiya işlər üçün istifadə etmək olar.
İcazə haqda tam məlumat almaq üçün www.teachkids.eu/az saytına girə bilərsiniz.

# Yaqub

Müəllif : Filippe Meyhyu
Maket : Brent Hotl
Rəsmlər : Peter Daskalov

Müəlliflik hüququ © 2004 Avropa Birləşmiş Uşaq Mərkəzi®
Bütün hüquqlar saxlanılıb.

Yalnız iş vərəqlərin nüsxələrini qrupunuzun ehtiyaclarına görə çıxartmaq olar.

Müqəddəs Yazılar «New King James Version» tərcüməsindən götürülüb. Müəlliflik hüququ © 1982 Thomas Nelson, Inc tərəfindən verilib. İcazə ilə istifadə olunur.
Bütün hüquqlar saxlanılıb.

Printed in Poland
ISBN 83-88905-26-0

Child Evangelism Fellowship
CEF European Centre Kilchzimmer
CH-4438 Langenbruck
Switzerland

www.cefeurope.com

kilchzimmer@cefeurope.org

## Mündəricət

**1** İmtahanlar . . . . . . . . . . . . . . . . . . . . . **4**

**2** Sınaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . **9**

**3** Allahın Kəlamı . . . . . . . . . . . . . . . . . **15**

**4** Ayrı-seçkilik . . . . . . . . . . . . . . . . . . . **21**

**5** Diri iman . . . . . . . . . . . . . . . . . . . . . **27**

**6** Dil . . . . . . . . . . . . . . . . . . . . . . . . . . **33**

**7** Münaqişələr . . . . . . . . . . . . . . . . . . **39**

**8** Gələcək planları . . . . . . . . . . . . . . . **45**

**9** Məsihin qayıdışı . . . . . . . . . . . . . . . **51**

**10** Dua . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 57

# Giriş

Müqəddəs Kitabı ayə-ayə yeniyetmə qrupu ilə araşdırmaq əsl çağırışdır. Amma siz bu dərsliyin köməyi ilə çağırışı qəbul edə bilərsiz. Burda Yaqubun məktubu əsasında 10 Bibliya dərsi var. Dərslər "istifadə üçün hazır" olsa da, onlar hazırlığı tələb edir və bu vaxta az əhəmiyyət vermək lazım deyil. Yeniyetmə qrupu ilə bölüşməzdən qabaq özünüz bu məktubu diqqətlə oxuyun. Yaqub 1:25 bizi Allahın Kəlamına baxmağa, buna davam etməyə və öz əməllərimizi ona uyğunlaşdırmağa ruhlandırır (Kəlamının icraçısı olun).



**Məqsədlər:** Bu dərsliyin məqsədi gənc imanlılara öz imanında böyüməyə kömək etməkdir. Hər məşğələ bilik, emosiyalar və əməllərdə mərkəzləşən üç məqsədə çatmaq istəyir. Bir müəllim kimi sizin məqsədiniz yalnız doktrinaya aid biliyi vermək deyil. Müqəddəs Ruhun işinə güvənərək siz gəncləri Allahın Kəlamını həyata keçirtməyə ruhlandıracaqsınız. Bu dərslik hələ Rəbbə iman etməyən gənclər üçün də istifadə oluna bilər. Bu sizə onlarla Xoş Xəbəri bölüşmək imkanını verəcək. Əlavə məqsəd kimi onların ehtiyacları nəzərdə tutulub.



**Suallar:** Bu suallar yeniyetmələr mətni araşdıranda kömək edəcək. Siz üç cür suallardan istifadə edəcəksiniz: müşahidə, qavrama və tətbiq sualları. Bu yolla gənclər oxuyacağı hissədə nə deyildiyini nəzərdən keçirəcəklər, sonra onun mənası üzərində düşünəcəklər və sonunda onlar onu həyata keçirəcəklər. Onlar yavaş-yavaş Bibliya parçasını izah etməyinin addımlarını öyrənəcəklər. Bu onlara öz sakit vaxtlarında kömək edəcək.



**Girişlər və yekunlar:** Bu dərslik həmçinin başlanğıcda yeniyetmələrin diqqətini ələ almaq və onları məktubu oxumağa hazırlamaq üçün üsulları təklif edir. Öz yekunlarında gəncləri öyrəndiklərini həyata keçirtməyə ruhlandırmağa çalışın.



İllüstrasiyalar: Dərslikdə istifadə olunan bir-neçə rəsm Bizim Gündəlik Çörəyimiz adlı (RBC Ministries, Grand Rapids, MI, USA) ibadət kitabçalardan ilham alıb. Bəziləri sizin qrupunuz üçün uyğun olmaya bilər və siz başqa rəsmləri axtaracaqsınız. Müəllim öz şəxsi təcrübəsi ilə bölüşəndə yeniyetmələr adətən bunu qiymətləndirir.



**Üsullar:** Yeniyetmələri iştirak etməyə həvəsləndirmək üçün siz müxtəlif üsulları tapacaqsınız: rol oyunu, hadisənin araşdırılması, şəkil dili, uydurma məktub, krossvordlar... Əgər sizin fikrinizcə bu üsulların istifadəsi məşğələni uzadacaqsa, onu iki hissəyə bölə bilərsiz.



**İş vərəqləri:** Siz iş vərəqlərini fotokopiya edib hər məşğələnin əvvəlində onları yeniyetmələrə paylaya bilərsiz. Qələmlər və söykənmək üçün bir şey verməyə unutmayın. Parçanı araşdırmağa kömək etmək üçün Yaqubun məktubunun hissələri iş vərəqlərində verilib. Amma əlavə mətnləri nəzərdən keçirtmək üçün gənclərə öz Müqəddəs Kitabları lazım olacaq.



**CD:** CD-ROM-da Microsoft® Word formatında və Adobe® PDF-də rəngli iş vərəqləri var. Bu yolla siz onların məzmununu dəyişə və cazibədar əyani vəsaitləri öz gəncləriniz üçün çap edə bilərsiz. Yalnız bu materialın sahibin bu faylları istifadə etmək hüququ var. Bu mətnlərin yaxud əyani yardımın hər bir formada, başqa cür yayılmasına səlahiyyət verilmir. Əgər CD-i alanda o zədələnibsə, xahiş edirik bu haqda BUM Avropa Mərkəzinə yazın ki, sizə yeni bir disk verilsin. BUM əmindir ki, bu fayllarda heç bir virus yoxdur. Sizin kompüterinizdə ola biləcək hər hansı bir problemə görə BUM məsuliyyət daşımır.

**16 yaşı +:** Bu məşğələlər 11-15 yaşlılar üçün hazırlansa da, dərslik bu təlimi yaşda böyük yeniyetmələrə uyğunlaşdırmaq üçün bir-neçə məsləhət təklif edir. Bu dərsliyi yazmaq üçün Duqlas C.Munun, Yaqubun Məktubu adlanan (Inter-Varsity Press, 1985) kitabı istifadə olunub; bu əlavə araşdırma və qrupunuzun ehtiyaclarını ödəmək üçün çox faydalı alət ola bilər.

# İmtahanlar

## Yaqub 1:2-12



**Məqsədlər**

Gənc imanlılar

- başa düşəcəklər ki, imtahanlar qaçılmazdır və onların ruhani artımı üçün dəyərlidir.
- dərk edəcəklər ki, imtahanla üzləşəndə onlar Allaha güvənə bilər və bir gün onlar həyat tacını alacaqlar.
- Allahdan xahiş edəcəklər ki, çətin vaxtlarda onlara möhkəm durmağa kömək etsin.

Xilası əldə etməyənləri 12-ci ayə ilə səsləmək olar, harda yazılıb ki, əbədi həyatın tacı Allahı sevənlərə verilir.



### Giriş: Yarışdan sonra

Pavelin 14 yaşı olanda o futbol yarışında iştirak etmək üçün Paris meydanına getdi. O komandada oynamağı həqiqətən sevirdi. Amma həmin axşam o öz otağında tək qalmağı üstün tutdu, çünki onun dostları çoxlu içki içirdi. Tezliklə Pavelə gülməyə başladılar və ona çoxlu təzyiq göstərdilər, amma o bu sınaqda möhkəm durdu. Sonralar o başa düşdü ki, bu təcrübə ona hər vəziyyətdə Allaha güvənməyə çox kömək etdi.

Ola bilsin bu sənə özün yaşadığın vəziyyətləri xatırladır. Bu gün biz məsihçi həyatında olan sınaqlar haqqında danışacayıq. Onlardan keçmək çətindir, amma Pavel üçün olduğu kimi onlar faydalıdır. Yaqub öz məktubunun birinci hissəsində bu mövzuya toxunur. [Hər gəncə iş vərəqi verin.]

### Müqəddəs Kitabdan oxumaq üçün mətn: Yaqub 1:2-6;12

2 Ey qardaşlarım, müxtəlif imtahanlara düşəndə, bunu böyük bir sevinclə qəbul edin,

3 Bilin ki, imanınızın sınanması təhəmmül hasil edir.

4 Təhəmmül isə öz əməlini ikmal etsin ki, siz heç bir nöqsanı olmayan, kamil və tam adamlar olasınız

5 Əgər sizlərdən birinin hikməti əskikdirsə, hər kəsə comərdliklə və gileylənməyərək verən Allahdan diləsin, ona veriləcəkdir.

6 Amma qoy imanla diləsin, heç şübhə etməsin...

12 İmtahana dözən adam xoşbəxtdir. Çünki sınaqdan uğurla çıxarkən, Rəbbin Onu sevənlərə vəd etdiyi həyat tacını alacaqdır.

## İmtahanların real olması

### 1- 2-ci ayədə Yaqub "müxtəlif imtahanlardan" danışır. Sən bilirsən o vaxt imanlılar hansı imtahanlarla üzləşib?

Məsihçiliyin yayılmasının qarşısını almaq istəyən Romalılar və yəhudilər onları ciddi təqib edirdi. Amma imanlılar çoxlu başqa problemlərlə üzləşdi, Yaqub onlar haqda öz məktubunda sonra yazır: xəstəlik, maddi narahatçılıqlar, münasibət problemləri...

### 2- Bu mətndə deyilmir ki, "əgər imüxtəlif mtahanlara düşsəz", amma deyilir ki "müxtəlif imtahanlara düşəndə". Biz burdan nə cür nəticə çıxarda bilərik?

Yaqub bu yolla bizə göstərir ki, imtahanlar qaçılmazdır. Məsihçi düşünməsin ki, onlardan çəkinəcəkdir. İmtahanlar məsihçi həyatının bir hissəsidir. Biz öz iş vərəqlərimizdə bu iki sözü qeyd edə bilərik: imtahanlar çoxdur və qaçılmazdır.

## 16 yaşı +

Əgər siz 16 yaşdan yuxarı olanları öyrədirsizsə, oxşar mətnləri öyrənə bilərsiz:

Zəbur 34:19 “Salehlər çox bəlaya düçar olar...”
2 Korinflilərə 4:8-9 “Hər tərəfdən sıxışdırılırıq...”
1 Peter 4:12 “Sevimlilərim, sanki başınıza qəribə bir iş gəlirmiş kimi, aranızda baş verib, sizi sınamaq üçün olan odlu imtahana təəccüb etməyin”



## Üsul: Şəkilləri izah etmək

Vərəqinizdə olan şəkilləri nəzərdən keçirdin və onlar hansı çətinliyi göstərdiyini danışın. [Qoy bir-neçə gənc izah etsin. Birinci şəkildə gənc oğlan rüsvayçı bir qrup tərəfindən təzyiqə məruz qalır. İkinci şəkildə onun öz valideyn yaxud müəllimlə çətin münasibətlərini görürük, ola bilsin məktəbdə pis qiymətlər aldığına görə.]

## 3- 2-ci ayəyə görə imtahana düşəndə biz nə etməliyik?

Bunu sevinc hesab edin! [iş vərəqi] Bu təlimatı qəbul etmək çətindir. “Bu mümkün olmadığı kimi görünür! ” Yaqubun bizə doğrudan nəyi öyrətdiyini biz başa düşməliyik.

- O demir ki, biz əziyyətə sevinməliyik; çətinliklər xoşagəlməzdir və özlüyündə sevindirici deyil.
- O həm də demir ki, siz həyatınızda hər şey yaxşı olduğu kimi hərəkət edəsiz və üzünüzdə saxta təbəssüm olsun, halbuku içinizdə əziyyət çəkirsiz.

Yaqub deyir ki, dərd və kədərə baxmayaraq siz sevinməyə bir səbəb tapa bilərsiz. Siz imtahanın xeyrini aşkar edəndə həqiqətən sevinə bilərsiz.

## 4- 3-cü ayəyə görə imtahan nə yaradır?

# İmtahanlar zamanı düzgün mövqe

Məsihçi həyatında imtahan dözümlülük, müqavimət göstərmək qabiliyyəti olan səbir yaradır [iş vərəqi]. Sizin Allaha olan etibarınız çətinliklərlə sarsılır ki, o daha da möhkəm olsun. Sən daha da möhkəm Allaha yapışırsan. [Siz girişdə verilən Pavelin məsəlini onların yadına sala bilərsiz.]

## İllüstrasiya: Kompyuter çapçıları sınaqdan keçirilir

Kolorado kompaniyasında istehsal edilən kompyuter çapçıları zavodu tərk etməzdən qabaq silkələmə prosesindən keçir. Əvvəlcə onlar dondurulur, sonra 54°C qədər qızdırılır və sonunda 15 dəqiqə ərzində bərk silkələnir. Onlar niyə belə sınaqdan keçirilir? Ona görə ki, onlar sonra Amerika ordusuna göndərilir və döyüş zonasında fövqəladə vəziyyətlərdə istifadə olunur.

# İmtahanların faydası

Sizin də hazır olmağınız çox əhəmiyyətlidir. İmtahanlara görə siz ruhən daha güclü olursuz, daha dözümlü olursuz, müqavimət göstərməyə daha qabiliyyətli və daha da çox Rəbdən asılı olursuz.

## 16 yaşı +

Eyni prosesi təsvir etmək üçün iki mətnə baxa bilərsiz:
Romalılara 5:3-4 və 1 Peter 1:6-7.

## 5- Son nəticə nədir – ayə 4?

Kamil və tam olmaq. Nəticə yetkinlik və kamillikdir (Müqəddəs Kitabı tərcümə edənlər hansının dəqiq olduğuna əmin deyil) [iş vərəqi]. Burda söhbət ruhani yetkinlik və kamillik haqda gedir. Çətinlik elə edir ki, məsihçinin həyatında dərin iş görülür. Onlar səni yavaş-yavaş dəyişir. Sən get-gedə daha da çox Rəbb İsaya bənzəyirsən. Əslində, kamilliyə yalnız Göylərdə çatmaq olar. Amma Allah bu gündən başlayaraq bunun üzərində işləyir.



## Üsul: Şəxsi şəhadətlik

[Siz öz şəxsi şəhadətliyinizi edib imtahanların sizin ruhani artımınıza necə kömək etdiyini göstərə bilərsiz.]

### 6- 5-7 ayələrə əsasən imtahana düşəndə sən nə etməlisən?

Allahdan müdriklik diləsin [iş vərəqi]. Müdriklik sənə kömək edəcək ki, çətinliyi başqa gözlə görəsən, sevincdə qalasan və minnətdar olasan. İmanla diləsən, Allah sənə hikmət verəcək. O xeyirxah və səxavətlidir. Sən imtahana eyni gözlə daha baxmayacaqsan.



### İllüstrasiya: Hava əjdahası nə deyərdi?

Əgər hava əjdahası danışa bilsəydi ola bilsin o deyərdi: “Bax, kəndir məni saxlasa da, mən nə qədər yüksəklərdə uça bilirəm. Kəndirsiz mən səmada gözdən itərdim!” Əslində, əgər hava əjdahası buraxılsaydı, ona nə olardı? O bir-neçə saniyə yellənərdi, sonra sığacaqdı (пикировать) və öz uçuşunu hansısa ağacın budaqlarında bitirərdi. Bəs o vaxt o nə deyərdi? “Demə mənim fikrincə mənə mane olan, məni endirən şey məni yüksəkdə saxlayırdı, müdafiə edirdi.” Mən əminəm ki, sizə də hərdən elə gəlir ki, imtahanlarınız sizə maneə olur, sizi endirir. Amma əgər Allah onları kəsib atsa, sizin Onunla münasibətləri əjdaha kimi düşəcək. Beləliklə, bu dərsi yadda saxla: bizim imtahanlarımız bizə get-gedə ucalara, Rəbbə yaxın uçmağa kömək edir.

İndi isə vaxt ayırın və sizin üzləşdiyiniz müxtəlif çətinlikləri haqda düşünün. Allahla öz çətinlikləriniz haqda danışın və Ona deyin ki, onlarınız vasitəsilə böyümək istəyirsiz. Sevinc və minnətdarlıq seçin!

[Müəllim üçün qeyd: biz Yaqubun xüsusi imtahanları haqda söhbət etdiyi 9-11 ayələri buraxacayıq. Amma 12-ci ayədə çoxlu tərcümələr “sınaq” sözünü istifadə etsə də, biz bu ayəni məşğələyə daxil edəcəyik. Yunan dilində imtahan və sınaq sözlərinin kökü eynidir. 12-ci ayədə iki məna qismən üst-üstə düşür. O baxışdan bizdə burda gördüyümüz şeylərə aid çox gözəl nəticə var.]

## İmtahanlardan sonra mükafat

### 7- Əgər sən imtahanlarda möhkəm dursan, 12-ci ayəyə görə nə əldə edəcəksən?

Tac [iş vərəqi]. Bu çətinliklərdə sevinmək üçün başqa bir səbəbdir!

### 8- Bu nəyi göstərir?

Yaqub bu məktubu yazan zaman taclar bu gün olduğundan çox yayılmışdı:

- Bahalı metaldan olan tacı padşahlar yaxud başqa səlahiyyətli şəxslər geyinirdi; bu izzət rəmzi idi [iş vərəqi];
- Gül tacı bayramlarda geyinirdi və xoşbəxtliyi ifadə edirdi [iş vərəqi];
- İdmançılar oyunlarda qalib gələndə onlara dəfnə tacı təqdim olunurdu və bu qələbəni ifadə edirdi [iş vərəqi].

Yaqub həyat tacı haqqında danışır [iş vərəqi]. Göylərdə məsihçilər Allahla bir yerdə yaşamaqdan tamlığı ilə zövq alacaq. Onlar Allahın izzətində yaşayacaq, tam xoşbəxtliyi duyacaq və Onun qələbəni bayram edəcək.

### 9- Bu kimin üçün saxlanılır?

Allahı sevənlər üçün [iş vərəqi]. Allahı sevmək Onu öz həyatlarımızda birinci yerdə qoymaq deməkdir. Sən Allahı sevirsən? Ona layiq olduğu yeri vermisənmi? Əgər yoxsa, bizim indicə təsvir etdiyimizdən sənə fayda olmaz. Sənin üçün çətinliklər hələ imanda böyümək üçün imkan deyil. Sən hələ Allahla bir yerdə yaşamırsan. Əksinə, sən günahların içində ölüsən. Allahdan sənin pis işlərini bağışlamağa xahiş et. Ondan dilə ki, Məsihin çarmıxda görülən işini sənin həyatına tətbiq etsin. İzn ver ki, Allah səndə Öz işini başlasın və səni bir gün Onun izzətində yaşamaq üçün hazırlasın.



### Yekun

Yaqubun bu gün bizə öyrətdiyini yekunlaşdıra bilərsən? Gəlin bir yerdə iş vərəqin axırında verilən üç cümləni bir yerdə bitirməyə çalışaq.

“Çətinliklərim olanda mən sevinməliyəm, çünki onlar mənə Məsihə daha çox bənzəməyə izin verir. Mən Allahdan hikmət diləyə bilərəm və Allahın Onu sevənlərə vəd etdiyi həyat tacını gözləyəcəyəm.”

## Əlavə: Məruzə

Gənclər məruzəçi ola bilər. Maqnitofonla yaxud videokamera ilə onlar bir-neçə yetkin imanlıdan müsahibə götürə bilər:

- Həyatınızda böyük imtahanlar yaxud sınaqlar olubmu?
- Onlardan bəziləri haqda bizə danışa bilərsinizmi?
- Siz onların öhdəsindən necə gəldiniz?
- Bizdə buna bənzər vəziyyətlər yarananda bizə ne etmək məsləhət görərdiniz?
- Bu çətinliklər sizə böyüməyə kömək etdimi?
- Hansı sahədə və necə?

# İmtahanlar

## Yaqub 1:2-12

**2** Ey qardaşlarım, müxtəlif imtahanlara düşəndə, bunu böyük bir sevinclə qəbul edin.

**3** Bilin ki, imanınızın sınanması təhəmmül hasil edir.

**4** Təhəmmül isə öz əməlini ikmal etsin ki, siz heç bir nöqsanı olmayan, kamil və tam adamlar olasınız.

**5** Əgər sizlərdən birinin hikməti əskikdirsə, hər kəsə comərdliklə və gileylənməyərək verən Allahdan diləsin, ona veriləcəkdir.

**6** Amma qoy imanla diləsin, heç şübhə etməsin.

**12** Imtahana dözən adam xoşbəxtdir. Çünki sınaqdan uğurla çıxarkən, Rəbbin Onu sevənlərə vəd etdiyi həyat tacını alacaqdır.




### İmtahanların real olması
Ayə 2a

İmtahanlar

_________________________ -dır

və _________________________



### Sınaqlar zamanı düzgün mövqe
Ayə 2b

Biz

_________________________

_________________________-yik.

# İmtahanların faydası

Onlar ________________________ (ayə 3) ⟶ ________________ (ayə 4) yaradır.

5-7-ci ayələrə görə imtahanlarla üzləşəndə siz nə etməlisiz?

_______________________________________________________________

Əgər hava əjdahası danışa bilsəydi ola bilsin o deyərdi: "Bax, kəndir məni saxlasa da, mən nə qədər yüksəklərdə uça bilirəm. Kəndirsiz mən səmada gözdən itərdim!" Əslində, əgər hava əjdahası buraxılsaydı, ona nə olardı? O bir-neçə saniyə yellənərdi, sonra sığacaqdı və öz uçuşunu hansısa ağacın budaqlarında bitirərdi. Bəs o vaxt o nə deyərdi? "Demə mənim fikrincə mənə mane olan, məni endirən şey məni yüksəkdə saxlayırdı, müdafiə edirdi." Mən əminəm ki, sizə də hərdən elə gəlir ki, imtahanlarınız sizə mane olur, sizi aşağı salır. Amma əgər Allah onları kəsib atsa, sizin Onunla münasibətləriniz əjdaha kimi düşəcək.



# İmtahanlardan sonra mükafatlar



Əgər sən imtahanlarda möhkəm dursan, 12-ci ayəyə görə nə əldə edəcəksən?

_______________________________________________

Bu nəyi göstərir? ________________________________________

_______________________________________________________________

Bu kimin üçün saxlanılır – ayə 12? ________________________________

## Yaqubun bu gün bizə öyrətdiyini yekunlaşdıra bilərsən?

Çətinliklərim olanda mən ______________________________ -yəm

çünki onlar mənə __________________________________izin verir.

Mən Allahdan________________________________diləyə bilərəm

və Allahın ________________________________ vəd etdiyi

____________________________ gözləyəcəyəm.

youth challenge CEF™

# Sınaq

## Yaqub 1:13-15



Məqsədlər

**Gənc imanlılar**

- başa düşəcək ki, sınaq nədir və o necə işləyir.
- başa düşəcək ki, əgər onlar sınağa təslim olsa, günah onların Allahla münasibətlərinə çox böyük zərər verəcək.
- bu həftə ola biləcək sınaqlara qarşı durmaq üçün Allahın köməyinə güvənə bilər.

15-ci ayə əsasında günahın nəticələrini araşdıran zaman xilas olmamış gənclər Allaha iman etmək üçün ruhlanacaqlar.



### Giriş: Yanğın həyəcanı

İki gənc qadın onların mənzilini məhv edən yanğın nəticəsində öz həyatlarını itirdi. Amma onların evində tüstünü aşkar edən çox yaxşı cihaz qurulmuşdu və o onlara təhlükədən xəbər verməli idi. Niyə görə bundan xeyir olmadı? Soruşub öyrəndilər ki, bu qadınlar bir axşam bundan qabaq bir şənlik təşkil etdilər. Onlar qorxdular ki, şamların tüstüsü yanğın siqnalını işə salacaq və onu söndürdülər.

Bu hadisə yadımıza salır ki, biz Allahla yaşadığımız həyatımızda da ayıq olmalıyıq. Bu gün araşdıracağımız parçada Yaqub sınaq haqqında danışır. Bu sən gözləməyən bir vaxt başlaya biləcək yanğın kimidir. Sən daim ayıq olmalısan. [İş vərəqlərini paylayın.]

### Müqəddəs Kitabdan oxumaq üçün mətn: Yaqub 1:13-15

13 Sınağa düşəndə qoy heç kim: Allah məni sınağa çəkir, - deməsin. Çünki Allah pisliklə sınağa çəkilmir və Özü də heç kimi sınağa çəkmir.

14 Lakin hər kəs öz ehtirası ilə aparılıb yoldan çıxarılaraq sınağa çəkilir.

15 Sonra ehtiras boylu qalıb günah doğurur. Günah da yetişəndə ölüm törədir.

## Sınaq nədir

### 1- Sınaq nədir?

Kimsə deyib ki, sınaq "günaha dəvətdir" [iş vərəqi]. Səni pis şeylər etməyə məcbur edəndə sən sınağa düşürsən. Tutaq ki, sən məktəbdən gedəndə yolda bir cib kisəsini tapırsan. Onun içində sahibin ünvanı, pul və telefon nömrələri var. Sən sınağa düşmüsən və onu özün üçün saxlamaq istəyirsən. Allah bizə vicdan verib. Sınaq gələndə bu daxili səs bizi xəbərdarlıq edir.

### 2- Niyə görə sınağın özü pis deyil?

Çünki sınaq günahdan qabaq gəlir – biz yalnız sınağa təslim olanda günah edirik. İsa sınağa düşəndə günah etməyib. Cib kisəsini tapmaq və onu yoxlamaq pis deyil. O biri tərəfdən, mən öz ağlımda onun içindəkiləri özümə götürmək fikrini qəbul edən kimi, mən fikirlərimdə günah edirəm. Əgər mən cib kisəsinin içindəkilərini götürsəm, mən oğurluq edirəm.



### Üsul:

Aşağıda gəncləri sınağa çəkən üç vəziyyət verilir. Onları oxuyandan sonra, dördüncü bir vəziyyət haqda düşün və onu iş vərəğində qeyd elə.

A. Tarix imtahanı zamanı Danielin yaddaşı tutqunlaşır. O adi vacib olan bir-neçə tarixi yada sala bilmir. Onun qeydləri onun əli çatan yerdə, məktəb çantasındadır. Ona öz

qeydlərinə baxmağa icazə verilsəydi!

B. İzabel öz istədiyi oğlan Patrikin yanına getdi və onlar bir yerdə rahatcasına divanda oturub DVD-yə baxır. Patrikin valideynləri getdi və axşam evdə olmayacaq. Kinoda seks səhnələri də var. Kino qurtarır və İzabel düşünür ki, qucaqlaşmaq istəyərdi.

C. Kolinin dostları bir az içməyə çox meyllidir. Futbol yarışından sonra onlar pivə aldı. Kolin bilir ki, o onlarla içməmək üçün ehtiyatlı olmalıdır, çünki onun atası alkoqolikdir. Amma onun ən yaxın dostu ona pivə bankasını təklif edir. Kolin öz adını saxlamaq istəyir.

## Sınağın mənbəyi

### 3- Bəzi adamlar onları belə vəziyyətlərə salıb sınağa çəkdiyinə görə Allahı günahlandırırlar. 13-cü ayədə Yaqub nə deyir?

Allah pisliklə sınağa çəkilmir və heç kimi sınağa çəkmir [iş vərəqi]. Bu Onun təbiətinə qarşı olardı: O günahdan ayrı olan Müqəddəs Allahdır. O nurdur; Onda qaranlıq ola bilməz. Buna görə bu ağlasığılmazdır ki, pislik Allahı cəlb etsin və O başqalarını da pislik etməyə ruhlandırsın.

### 4- Amma Müqəddəs Kitab "sınağaçəkən" haqqında danışır. 2 Timoteyə 2:26-a görə o kimdir və nə edir?

[Yaqub baş sınağa çəkəni **diqqətsiz qoymur.** O 4-cü fəsilin 7-ci ayəsində onun haqqında danışır. İndi isə o insanın məsuliyyəti üzərində durmağına üstünlük verir.]

İblis bizə tələlər qurur [iş vərəqi]. Timoteyin dövranında düşmən tərəfindən əsir saxlanılmış və onun iradəsinə tabe olan insanlar tərəfindən müqavimət var idi. Amma bu ayədə Pavel deyir ki, Allahda hər kəsi şeytanın əsarətindən çıxartmaq qüdrəti var. Biz Allahın köməyini istəyə bilərik və istəməliyik.

**16 yaşı +**

Siz yaşda daha böyük olanlarla başqa parçaları nəzərdən keçirə bilərsiz:
2 Korinflilərə 11:3; 2 Korinflilərə 11:15.
Matta 4:3 və 1 Saloniklilərə 3:5 "sınağaçəkən" sözünü istifadə edir.

### 5- Yaqub təsdiq edir ki, əsasən buna görə məsuliyyət daşıyan bizik. Axı bizdə sınağa səbəb olan nə var?

Bizdə olan pis arzular [iş vərəqi]. Mənim və sizin ürəyinizin dərinliyində zərərli istəklər gizlənilir (Mark 7:15,20-23). Biz özümüzü yoxlamalıyıq. Əgər mən cib kisəsini oğurlamaq sınağına düşürəmsə, bu pula və əmlaka olan sevgiyə görə deyilmi? Əgər Daniel imtahan zamanı köçürmək sınağına düşürsə, bu ona görə deyilmi ki, onun üçün uğur düzlükdən daha vacibdir? Əgər İzabel öz istədiyi oğlanla fiziki əlaqədə olmaq sınağına düşürsə, bu ona görədir ki, onda onu yanlış cinsi təcrübəyə vadar edən nəsə var. Əgər Kolin alkoqol içmək sınağına düşürsə, bu ona görə deyilmi ki, o öz sağlamlığından da çox öz məşhurluğu haqqında düşünür? Sınaq əlbəttə ki, bizim pis arzularımızdan gəlir. Satqın içində olanda qala tez dəf edilir!

### 6- Həmin 14-cü ayədə Yaqub bu pis arzuları təsvir etmək üçün hansı felləri istifadə edir?

Onlar bizi aparır və aldadır [iş vərəqi]. Orijinal dilində (yunan), ikinci fel balıq ovu ilə bağlı lüğətə aiddir.



### İllüstrasiya: Dadlı yer qurdu

Dadlı qurd asanlıqla balığı cəlb edir. Öz iştahına görə balıq, çox guman ki, çəngəli yaxud suyun üzərində balıqçının kölgəsini görməyəcək. Bu tələ yemi dəfedilməzdir və bu yazıq balığın aqibəti tezliklə faciəli olacaq. Pisliyin bizi cəlb etdiyi qüvvəni göstərmək üçün Yaqub bu təsviri istifadə edir. Əgər biz bu güclü cazibəyə qarşı durmasaq, yaxalana bilərik.

Gəlin yekunlaşdıraq: sınaq - günah etməyə dəvət yaxud təhrikçilikdir. Bunun səbəbkarı Allah deyil. Buna imkan yaradan şeytandır, amma bizi günaha tərəf aparan bizim pis arzularımızdır.

## Sınağın nəticəsi

### 7- 15-ci ayəyə görə kimsə günaha yol versə, bunun nəticəsi nə olacaq?

Allahdan əbədi ayrılıq olan ölüm [iş vərəqi]. (Bənzər mətnlər: Yezekel 18:4; Romalılara 6:23). Bu ilk növbədə Allahsız yaşayan insanlara aydın xəbərdarlıqdır. Yadında saxla ki, Allah müqəddəsdir və günaha dözə bilmir. Buna görə hər dəfə insan günaha "bəli" deyəndə, o Allaha "yox" deyir. O Allahdan daha da uzaqlaşır və ölümə tərəf bir addım da atır. İnsanın özünün içində sınağa və günaha qarşı durmaq üçün imkanlar yox-dur. O özünü Allaha verməlidir. Allah Öz sevgisinə görə Öz Oğlunu göndərdi. İsa hər münasibətdə sınağa çəkilsə də, heç vaxt günah etmədi. O bizim bütün pis hərəkətlərimizə görə çarmıxda canını qurban verdi və ölülərdən dirildi. Allaha etibar edib öz həyatını Ona verən insan bağışlanır. Bununla yanaşı Allah ona iman edənlərə Onun üçün yaşamağa qüvvət və azadlıq verir. Sən Ondan bunu istəmisən?

### 8- Məsihçi sınağa və günaha qarşı mübarizə aparsa da, o hərdən təslim olur. Bu onun Allahla münasibətlərinə necə təsir edir?

Əgər sən günaha təslim olsan, sənin itaətsizliyin sənin və Səmavi Atanın arasında maneə olacaq. Bu sənin Müqəddəs Kitabı oxumağına və dua həyatına təsir edəcək. Ola bilsin sən artıq belə vəziyyəti yaşamısan. Bəlkə sən buna da fikir vermisən ki, bir günah başqa günaha aparır. İtaətsizlik adətə çevrilə bilər və bunun nəticəsi məhvedicidir. Biz sevinci itiririk. Təqsir və narahatlıq üstün gəlir [iş vərəqi].



### İllüstrasiya: Dumanlı səma

Qışda biz günəş işığını qiymətləndiririk. Bu bizi isidir və təbiəti xüsusi gözəl göstərir. Amma günəşi gizlətmək üçün bir bulud kifayətdir. Əgər bizim "səmamız" (həyatımız) günahla örtülürsə, biz Allahla əlaqəmizi itiririk.

### 9- Bizim Allahla əlaqəmiz necə bərpa oluna bilər? 1 Yəhya 1:9

Əgər sınağa təslim olmusansa, səmimi ol və öz günahını Allaha etiraf et. Öz vədinə görə Atan səni bağışlayacaq və təqsirindən azad edəcək. Ondan sonra sən Ona güvənə bilərsən, çünki bilirsən ki, öz gücün ilə sınağa qalib gələ bilməzsən.



### Üsul: Müzakirə edən qruplar

[Cavan uşaqları üç ya dörd adamdan ibarət qruplara bölün. Onar sınaqla üzləşən bir-neçə Müqəddəs Kitab qəhrəmanlarını araşdıracaqlar. Bəziləri qarşı durdu, bəziləri təslim oldu. Gənclər bundan praktiki dərslər almalıdır.]

| Bibliya parçası | Qəhrəman | Sınağa müqavimət göstərmək üçün praktiki məsləhət |
|---|---|---|
| Yaradılış 13:10-13 | Lut | Özünə cəmiyyəti ehtiyatla seç |
| Yaradılış 39:11-12 | Yusif | Güclü sınaqdan qaç |
| 2 Şamuel 11:1-4 | Davud | Sağlam fəaliyyətinin ardınca düş |
| Matta 4:1-11 | İsa | Allahın Kəlamında kök sal |

## Sınaq zamanı kömək

### 10- 1 Korinflilərə 10:13-də siz sınaqla üzləşəndə Allah haqqında sizi çox ruhlandıracaq iki şey tapacaqsınız. Onları yaz:

1. O bizim gücümüzdən artıq imtahan olmağımıza izin verməyəcək.
2. O bizə sınaqdan qurtulmaq üçün yol düzəldəcək.

Sən sınaqla üzləşəndə yadına sal ki, Allah onun gücünü nəzarət edir və O sınaqdan qur-tulmaq yolunu hazırlayır. Bütün qüvvətinlə Ona güvən. Bu yolla sən özünü tordan çıxarda biləcəksən.



## Yekun

Gəlin öyrəndiklərimizi yekunlaşdıraq:

1. Müəyyənləşdirmə – sınaq günah etməyə dəvətdir.
2. Mənbə – bizi cəlb edən və azdıran bizim pis istəklərimizdir.
3. Nəticə – biz günaha və ölümə tərəf aparılırıq.
4. Ruhlandırma – Allah sınağın gücünə nəzarət edir və qurtulmaq yolunu hazırlayır.

Gələcək günlərdə oyaq ol və öz Allahına güvən!



## Əlavə: Rolların oynanılması

Sınaq dostları tərəfindən gələndə, cavanlara müqavimət göstərməyə xüsusilə çətin olur. Siz onlara rol oynamağını istifadə edərək bunu məşq etməyə imkan verə bilərsiz. Siz aşağıdakı ssenarini istifadə edə bilərsiz:

"Dörd cavan itmiş pul çantasını tapır. Onlardan üçü heç bir problemi olmadan içində olanları götürə bilər. Dördüncüsü məsihçidir." Gənc imanlı uyğun reaksiya verənə qədər bu səhnəni bir-neçə dəfə oynamaq lazım gələ bilər.

## Dostuna necə kömək etmək olar?

Siz sınaq probleminə başqa nöqteyi-nəzərdən baxa bilərsiz: qrupunuzdan xahiş edin ki, onlar başqalarına sınağa düşməmək üçün necə kömək edə biləcəyi haqda düşünsün. Cavan uşaqlar təsəvvür edə bilər ki, onların bir dostu var və o dost təzyiq altında marixuanalı siqareti çəkdi və indi ona bu istəyə qarşı durmaq çətindir. Onlardan xahiş edin ki, bir-necə praktiki məsləhət versin.

- Özün bu narkotikə toxunmayıb ona nümunə ol.
- Bu narkotikin verdiyi zərərlər haqqında dostunu xəbərdarlıq et.
- Onu gənclər qrupuna dəvət et.

# Sınaq

## Yaqub 1:13-15

**13** Sınağa düşəndə qoy heç kim: Allah
məni sınağa çəkir, - deməsin. Çün-
ki Allah pisliklə sınağa çəkilmir
və Özü də heç kimi sınağa
çəkmir.
**14** Lakin hər kəs öz ehtirası ilə
aparılıb yoldan çıxarılaraq
sınağa çəkilir.
**15** Sonra ehtiras boylu qalıb günah
doğurur. Günah da yetişəndə
ölüm törədir.



## Sınaq nədir?

______________________________________________

A. Tarix imtahanı zamanı Danielin yaddaşı tutqunlaşır. O adi vacib olan bir-neçə tarixi yada sala bilmir. Onun qeydləri onun əli çatan yerdə, məktəb çantasındadır. Ona öz qeydlərinə baxmağa icazə verilsəydi!

B. İzabel öz istədiyi oğlan Patrikin yanına getdi və onlar bir yerdə rahatcasına divanda oturub DVD-yə baxırdılar. Patrikin valideynləri getdi və axşam evdə olmayacaqlar. Kinoda seks səhnələri də var. Kino qurtarır və İzabel düşünür ki, qucaqlaşmaq istəyərdi.

C. Kolinin dostları bir az içməyə çox meyllidir. Futbol yarışından sonra onlar pivə aldı. Kolin bilir ki, o onlarla içməmək üçün ehtiyatlı olmalıdır, çünki onun atası alkoqolikdir. Amma onun ən yaxın dostu ona pivə bankasını təklif edir. Kolin öz adını saxlamaq istəyir.

Başqa hansı vəziyyətdə sınaq peyda olur?

______________________________________________

______________________________________________

## Sınağın mənbəyi

Bəzi adamlar onları belə vəziyyətlərə salıb sınağa çəkdiyinə görə Allahı günahlandırırlar. 13-cü ayədə Yaqub nə deyir?

Allah ______________________________________________ çəkilmir.

Amma Müqəddəs Kitab "sınağaçəkən" haqqında danışır. O kimdir və nə edir?

2 Timoteyə 2:26 :______________________________________________

Yaqub təsdiq edir ki, əsasən buna görə məsuliyyət daşıyan bizik. Axı bizdə sınağa səbəb olan nə var?

_______________________________________

Həmin 14-cü ayədə Yaqub bu pis arzuları təsvir etmək üçün hansı felləri istifadə edir?

_________________ + ___________________



# Sınağın nəticəsi

15-ci ayəyə görə kimsə günaha yol versə, bunun nəticəsi nə olacaq?

_______________________________________________________________________________

Məsihçi sınağa və günaha qarşı mübarizə aparsa da, o hərdən təslim olur. Bu onun Allahla münasibətlərinə necə təsir edir?

_______________________________________________________________________________

Bizim Allahla əlaqəmiz necə bərpa oluna bilər? 1 Yəhya 1:9

_______________________________________________________________________________

| Bibliya parçası | Qəhrəman | Sınağa müqavimət göstərmək üçün praktiki məsləhət |
|---|---|---|
| Yaradılış 13:10-13 | | |
| Yaradılış 39:11-12 | | |
| 2 Şamuel 11:1-4 | | |
| Matta 4:1-11 | | |

# Sınaq zamanı kömək

1 Korinflilərə 10:13-də siz sınaqla üzləşəndə Allah haqqında sizi çox ruhlandıracaq iki şey tapacaqsınız. Onları yaz.

O bizim ____________________________________________ izin verməyəcək

O bizə ________________________________________ yol düzəldəcək.

# Allahın Kəlamı

## Yaqub 1:22-25



Məqsədlər

Gənc imanlılar

- başa düşəcək ki, Allahın Kəlamı onların ruhani vəziyyətini göstərən güzgü kimidir.
- başa düşəcəklər ki, Kəlama qulaq asmaq yaxud onu oxumaq kifayət deyil: ona əməl etmək lazımdır.
- həftənin hər günü Bibliya ayələrini öyrənəcək və Allahın əmrlərinə əməl edəcək.

Xilas olmayanlar öz ruhani vəziyyətlərini başa düşəcəklər; onlar Rəbdən onları xilas etməyi və onların həyatlarını kökündən dəyişməyi xahiş edəcəklər.



### Giriş: Hey, bu mənəm!

Gəl təsəvvür edək ki, sən bir jurnalın səhifələrini bir-bir açırsan və birdən təəccüblənirsən – sən özün haqda yazılmış məqaləni görürsən. Bütün səhifə sənin həyatına həsr olunub. Orda hətta sənin dostlarınla bir yerdə çəkilmiş şəkilin də var. O vaxtdan bu jurnal çox əhəmiyyətli olur. Sən bu jurnalı böyük maraqla oxuyursan, çünki o sənin haqqında danışır!

Müqəddəs Kitab da sənin haqqında danışır. Əlbəttə, sən orda öz adını yaxud şəklini tapmazsan. Amma Bibliyanı oxuyanda yaxud məbəddə onun əsasında verilən dərsə qulaq asanda sən özün haqqında çoxlu vacib şeyləri tapacaqsan. Səndə "hey, bu mənəm!" təcrübəsi olanda və Bibliyanın şəxsi xüsusiyyətini başa düşəndə sən bu kitabın səhifələrini böyük maraqla oxumağa və ona səni kökündən dəyişdirməyə izin verməyə başlayacaqsan. [İş vərəqlərini paylayın.]

### Müqəddəs Kitabdan oxumaq üçün mətn: Yaqub 1:22-25

**22** Allah Kəlamını yalnız eşitməklə kifayətlənib, özünüzü aldatmayın; bu kəlamın icraçısı da olun.

**23** Çünki Kəlamı eşidib onu icra etməyən, güzgüdə öz sifətinin cizgilərini seyr edən adama bənzəyir;

**24** O öz-özünə baxır, kənara çəkilir və dərhal necə olduğunu unudur

**25** Lakin kim kamil qanuna, azadlıq qanununa diqqətlə baxıb ona bağlı qalarsa və unutqan dinləyici deyil, icraedicidirsə, öz əməlində xoşbəxt olacaqdır.

## Kəlam güzgüdür

[Müəllim üçün qeyd: 22-ci ayəni araşdırmaqla başlamaq çətindir. "Kəlamın" nə olduğunu və Yaqubun onu güzgü ilə niyə müqayisə etdiyini başa salmaqla başlamaq daha yaxşıdır. Sonra davam edin və onu icra etməyin vacibliyi haqda danışın.]

### 1- Bu hissədə "kəlam" sözü bir-neçə dəfə istifadə olunur. Bu nəyi nəzərdə tutur?

Şübhəsiz bu Allahın Kəlamını nəzərdə tutur, amma yalnız onun yazılı qaydasında yox. Biz Kəlamı oxuya bilərik, amma həmçinin klubda yaxud məbəddə olan dərslərə qulaq asa bilərik. Görünür ki, Yaqubun ağlında iki şey var: 22-ci ayə danışılan Kəlama aiddir, 23-cü ayə isə yazılmış Kəlama aid ola bilər. [İş vərəğində qeyd et.]

### 2- Niyə görə Yaqub Kəlamı güzgü ilə müqayisə edir?

Biz Allahın Kəlamını oxuyanda yaxud dinləyəndə özümüz haqqında vacib şeyləri tapırıq [iş vərəqi]. Güzgü bizə öz surətimizı necə göstərirsə, Bibliya da bizə bizim əslində kim olduğumuzu göstərir. Bu bizə Allahın qarşısında bizim nə vəziyyətdə olduğumuzu aşkar edir.

İmansız bir insan Bibliyanı oxuyanda və bu kitabın onun haqqında danışdığını başa düşəndə, onda həyəcana səbəb yaranmalıdır. Ona aşkar olur ki, günah onun varlığının hər bir hissəsinə təsir edib. Elə bil günaha görə o korlanıb. Amma o Allahdan diləyə bilər ki, Məsihin çarmıxda gördüyü işi onun həyatına gətirsin və onu kökündən dəyişdirib yeni bir adam etsin. (18-ci ayə bu haqda danışır). Sən Allahdan sənin üçün bunu etməyə xahiş etmisən?

Əgər sən məsihçisənsə, bu güzgüyə baxmağa davam etməlisən. Sən həyatında nəyin Allahı razı saldığını başa düşəcəksən, amma inkişaf etdirməli sahələri də görəcəksən. Allah sənin gözlərini açmaq və səni yavaş-yavaş dəyişmək üçün Kəlamını istifadə edir. O bunun qayğısına qalır ki, sən böyüyəsən və get-gedə Onun iradəsinə daha da çox uyğunlaşasan.

### 16 yaşı +

Yaşda daha böyük olan qrupla siz 1 Peter 1:23-2:3 araşdıra bilərsiz.

- Biz yeni həyata canlı Kəlam - Xoş Xəbər vasitəsilə doğulmuşuq.
- Böyümək üçün biz Kəlamın təmiz südunü arzulamalıyıq.

### 3- 22-ci ayəyə görə Kəlamı eşidəndən sonra sən nə etməlisən?

Onu icra etmək [iş vərəqi]. Əgər pastorun vəzi yaxud bizim bir yerdə keçirdiyimiz məşğələlər sənə Allahın səndən nə gözlədiyini daha yaxşı başa düşməyə kömək etdisə, buna əməl et! Əgər Kəlam həyatında olan bir problemə toxundusa, sən bunu anlamalısan! Kəlama əməl etmək çox əhəmiyyətlidir. Ona əhəmiyyət verməmək Yaqubun dediyi kimi, özünü aldatmaqdır. Biz düşünməməliyik ki, Allahın əmrlərinə əməl etmədən Onunla yaşaya bilərik.

## Kəlama əhəmiyyət verməyən adam

### 4- Sonra Yaqub Kəlam baxımından iki nəfərin münasibətini müqayisə edir. 23-cü və 24-cü ayələrə əsasən birinci adam nə edir? (İstifadə olunmuş felləri qeyd edin.)

O öz-özünə baxır - kənara çəkilir - necə olduğunu unudur [iş vərəqi].



### İllüstrasiya

Təsəvvür elə sən bir gün səhər çarpayıdan durmusan və tez səhər yeməyini yeyirsən. Sonra bir-neçə saniyə güzgü qabağında keçirirsən. Güzgüdə gördüyü şey səni silkələdi: saçlar qarışıb, dumanlı gözlər, dodaqların üstündə şokolad izləri, köynəkdə ləkələr... amma sən məktəbə gedirsən və gördüyünü unudursan! Sən Bibliyanı oxuyanda və o sənə həyatında düzgün olmayan bir şeyi göstərəndə sənin münasibətin buna bənzər deyilmi? Sən tezliklə bunu unudursan. Biz məbəddən təzəcə qayıdıb orda Allah haqqında eşitdiyimiz təlimə əhəmiyyət verməyəndə eyni şey baş verir.

### 5- Sən Kəlama beləcə laqeyd olanda bunun nəticəsi nə olur?

Bu cavan uşağın(gəncin)fiziki görünüşü fəlakətli vəziyyətdə olduğu kimi, sənin ruhani vəziyyətin eyni cür pis gündə olacaq. [iş vərəqi]. Kəlama laqeyd olmaq Allahın üzünə qapını bağlamaq kimidir, Onu bizim həyatlarımızda işləməyə qoymamaqdır. Onun planı odur ki, sən Onun kimi müqəddəs olasan. Əgər sən Bibliya təliminə əhəmiyyət vermirsənsə, sən dəyişməyəcəksən və böyüməyəcəksən. Sənin Allaha münasibətin korlanacaq və davranışın da pisləşəcək.

## Kəlama əməl edən adam

### 6- 25-ci ayədə Yaqub başqa adamı təsvir edir. O nə edir? (Yenə istifadə olunan felləri qeyd edin.)

- O Kəlama yaxud qanununa diqqətlə baxır (xırdalıqları yoxlayır).
- O buna davam edir (sədaqətlə ona bağlı qalır.)
- O Allahın Kəlamında deyilənləri icra edir [iş vərəqi].

### 16 yaşı +

Yaşda daha böyük uşaqlar olan qrupda siz 2 Padşahlar 22 və 23 baxa bilərsiz. Yoşiyanın dövründə Allahın məbədində Qanun kitabı tapılmışdı. Yoşiya Kəlamı eşidəndə o nümunəvi reaksiya verdi:

- O tövbə rəmzi kimi öz paltarını cırdı – 22:11.
- O Allahın qəzəbi haqda öyrəndi və Ona müraciət etməyə çalışdı – 22:13.
- Onun ürəyi yumşaldı, Rəbbin önündə özünü alçaltdı və ağladı – 22:19.
- O əhd bağladı ki, Rəbbin yolu ilə gedib Onun əmrlərinə, fərmanlarına, qaydalarına bütün qəlbi və bütün varlığı ilə əməl edəcək – 23:3.
- O ləngitmədən onlara əməl etdi – 23:4.



## Üsul: İş qrupları

Gəlin indi Yaqubun təlimatlarına əməl etməyə çalışaq. [Gəncləri 4-5 nəfərdən ibarət qruplara bölün. Onlar Zəbur 1:1-3 araşdıracaq və cədvəli tamamlayacaq. Birinci sual onları

| Zəbur 1:1-3 | Bu hissə sənin haqqında nə öyrədir? Öz sözləri ilə qısaca söylə. | Gələcək günlərdə mən nə etməliyəm? |
|---|---|---|
| Pislərin məsləhəti ilə getməyən, Günahkarların yolunda dayanmayan, Rişxəndçilərin arasında oturmayan insan nə bəxtiyardır! O ancaq Rəbbin qanunundan zövq alar, gecə-gündüz bu təlimatı dərin düşünər. Axar sular kənarında əkilən ağac kimi barını mövsümündə verər, yarpağı solmaz, etdiyi hər işdə uğur qazanar. | Xoşbəxt olmaq üçün mən pis cəmiyyətdən çəkinməliyəm. Mən həmçinin Bibliyanı oxumalı və gün ərzində onun üzərində düşünməliyəm. Beləcə mənim həyatım çoxlu bəhrə verəcək. | • Dostlarımın mənə necə təsir etdiyinə diqqətli olmalıyam. Lazım olsa başqa dostlar axtarmalıyam.<br>• Hər gün Bibliya ayələrini oxumaq üçün vaxt ayırmalıyam.<br>• Gün ərzində o ayələr haqda düşünməliyəm və Allahdan onlara əməl etmək üçün yardım diləməliyəm. |

## 7- Gələcək günlərdə Kəlam üzərində düşünməsinə birinci yer verəcəksənmi?

Ola bilsin sənin həyatın artıq çox doludur: məktəb, ev tapşırığı, televizor, idman, dostlarına zənglər, yemək, yatmaq və s. Hərdən biz bizim üçün nəyin üstün olduğuna yenidən baxmalıyıq.





## İllüstrasiya: Əyani dərs

[Bir balon, çoxlu xırda çay daşı və daş tapın.] Tutaq ki, balon sənin həyatındır. Sən çoxlu fəaliyyətlərdə iştirak edirsən. [Bütün xırda daşları balona atıb onu təxmini doldurun.] Kəlamı araşdırmaq üçün vaxt ayırmağa çətin görünür. [Böyük daş bütövlüklə balona girmir.] [Balonu boşaldın, əvvəlcə böyük daşı qoyun, sonra xırda daşları. İndi hamı yerləşdi.] Əgər sən gününü Kəlamı oxumaqla başlasan, qalan hər şey yerinə düşəcək. Hərdən sən seçim etməli və bəzi fəaliyyətləri buraxmalı olacaqsan. Sənin üçün üstün olan şeyləri gözdən itirmə. [Xırda daşların sayını düzgün müəyyən etmək üçün siz bir-neçə dəfə bunu edəcəksiniz.]

Mən məsləhət görürəm ki, siz həftə ərzində Koloslulara 3 və 4-cü fəsilləri oxuyasız. Orda tapacağınız həqiqətlərin və təlimatların siyahısını yazın və sonra Allahın Kəlamına itaət edərək hərəkət edin.

Xeyir

## 8- Əgər sən Allahın Kəlamına əməl etmək üçün canını qoysan, Zəbur 1 və Yaqub 1:25 görə həyatında nə baş verəcək?

İrəliləyiş (ruhani mənada), məhsul, xeyir-dualar, sevinc [iş vərəqi]. Sən Allahın Kəlamına səni yavaş-yavaş dəyişməyə izin verəndə, Allah sənin yelkəninə külək göndərir və sənə uğur verir. Eləcə də O sənə Onun xidmətində bol sevinc verir. Luka 11:28; 2 Timotey 2:21 bax.



## Yekun

Gözlərimizi açıb Bibliyanın sənin və mənim haqqında danışdığını başa düşmək vaxtıdır. Vaxt ayırıb özünü güzgüdə yoxlayacaqsan? Bu həftə ərzində Kəlamı öyrənmək qərarına gəlmisən? Məbəddə yaxud klubda oturanda buna başqa cür yanaşmaq istəyirsənmi? Amma unutma ki, Kəlamı oxumaq və qulaq asmaq kifayət deyil. Ondan sonra sən Kəlama əməl etməlisən. Rəbdən bunu etmək üçün kömək istə.



## Əlavə: Dua vaxtı

Zəbur 119 dua vaxtını idarə edə bilərdi. Əgər siz bu Zəburdan bəzi ayələrini kartlara yazsanız, ucadan dua etmək istəyən hər gənc birini seçib ruhlanma kimi istifadə edə bilər.

Ayə 16: Qaydalarından zövq alıram, Sözünü unutmuram.

Ayə 24: Öyüdlərindən zövq alıram, Onlardan məsləhət alıram.

Ayə 34: Mənə ağıl ver, qanununa görə yaşayım, Bütün qəlbimlə ona bağlanım.

# Allahın Kəlamı

## Yaqub 1:22-25

**22** Allah Kəlamını yalnız eşitməklə kifayətlənib, özünüzü aldatmayın; bu kəlamın icraçısı da olun.

**23** Çünki Kəlamı eşidib onu icra etməyən, güzgüdə öz sifətinin cizgilərini seyr edən adama bənzəyir;

**24** O öz-özünə baxır, kənara çəkilir və dərhal necə olduğunu unudur.

**25** Lakin kim kamil qanuna, azadlıq qanununa diqqətlə baxıb ona bağlı qalarsa və unutqan dinləyici deyil, icraedicidirsə, öz əməlində xoşbəxt olacaqdır.

## Kəlam - güzgüdür

Bu hissədə "kəlam" sözü bir-neçə dəfə istifadə olunur. Bu nəyi nəzərdə tutur?

______________________________

______________________________

Niyə görə Yaqub Kəlamı güzgü ilə müqayisə edir?

______________________________________________________________________

22-ci ayəyə görə Kəlamı eşidəndən sonra sən nə etməlisən?

______________________________



## Kəlama əhəmiyyət verməyən adam

Sonra Yaqub Kəlam baxımından iki nəfərin münasibətini müqayisə edir. 23-cü və 24-cü ayələrə əsasən birinci adam nə edir? (İstifadə olunmuş felləri qeyd edin.

______________________________

______________________________

Sən Kəlama beləcə laqeyd olanda bunun nəticəsi nə olur?

_______________________________________________

_______________________________________________



# Kəlama əməl edən adam

25-ci ayədə Yaqub başqa adamı təsvir edir. O nə edir? (Yenə istifadə olunan felləri qeyd edin.)

_______________________________________________

_______________________________________________

| Zəbur 1:1-3 | Bu hissə sənin haqqında nə öyrədir? Öz sözləri ilə qısaca söylə. | Gələcək günlərdə mən nə etməliyəm? |
|---|---|---|
| Pislərin məsləhəti ilə getməyən, Günahkarların yolunda dayanmayan, Rişxəndçilərin arasında oturmayan insan nə bəxtiyardır! O ancaq Rəbbin qanunundan zövq alar, gecə-gündüz bu təlimatı dərin düşünər. Axar sular kənarında əkilən ağac kimi barını mövsümündə verər, yarpağı solmaz, etdiyi hər işdə uğur qazanar. | | |

# Xeyir

Əgər sən Allahın Kəlamına əməl etmək üçün canını qoysan, Zəbur 1 və Yaqub 1:25 görə həyatında nə baş verəcək?

_______________________________________________

_______________________________________________

# Ayrı-seçkilik

## Yaqub 2:1-12



Məqsədlər

Gənc imanlılar
- ayrı-seçkiliyin nə olduğunu başa düşəcəklər.
- dərk edəcəklər ki, bu cür münasibət tamamilə Allaha uyğun deyil və Allah bunu məhkum edir.
- gələcəkdə bütün dostlarını, hətta onlardan çox fərqli olanları salamlamağa və sevməyə çalışacaqlar.

Xilas olmayanlar görəcəklər ki, Allahda ayrı-seçkilik yoxdur və O Ona etibar edən hər bir insanı xılası verir.



### Giriş: Şokolad

[Ayrı-seçkiliyi aydın-aşkar göstərən misalla dərsi başlayın: qrupda olan müəyyən adamlara plitka şokolad paylayın. "Birini ona verirəm, çünki o məni güldürür. Birini buna, çünki onun saç düzümü mənim xoşuma gəlir. Və birini buna verirəm, çünki o mənimlə eyni idmanla məşğul olur…" Qalanlara şokolad verilməyəcək və onlar qıraqda qalacaq. Onlardan soruşun: "Mənim bu hərəkətimi hansı sözlə ifadə etmək olar? Sizə şokolad verilməyəndə nə hisslər keçirtdiniz?" Sonra siz öz münasibətinizi düzəldib qalanlara da plitka şokolad verin.]

Bu məktubun ikinci fəsilində Yaqub ayrı-seçkilik haqqında danışır və bunun Allahın bizdən gözlədiyi münasibətə zidd olduğunu göstərir. [İş vərəqlərini paylayın.]

### Müqəddəs Kitabdan oxumaq üçün mətn: Yaqub 2:1-5,8-9,12

**1** EY QARDAŞLARIM! Izzətli Rəbbimiz Isa Məsihə imanınızı ayrı-seçkiliklə davam etdirməyin.

**2** Çünki əgər toplaşdığınız yerə qızıl üzük taxmış, qəşəng paltar geymiş bir adam girərsə, və yoxsul, çirkli paltar geymiş adam da girərsə,

**3** Və siz qəşəng paltarı olana diqqət verib: Buyurun, siz burada əyləşin, yoxsula isə: Sən orada dur, yaxud: Burada payəndazımın yanında otur, - deyərsinizsə,

**4** Öz aranızda ayrı-seçkilik etmirsinizmi? Və pis düşüncəli hakimlər olmursunuzmu?

**5** Qulaq asın, ey sevimli qardaşlarım: məgər Allah bu dünyanın yoxsullarını imanda zəngin və Onu sevənlərə və'd etdiyi Səltənətin varisi olmağa seçmədimi?

**8** Əgər siz: Qonşunu özün kimi sev, - deyən Müqəddəs Yazıya görə Hökmdarımız Allahın Qanununa həqiqətən riayət edirsinizsə, yaxşı iş görürsünüz.

**9** Yox, əgər ayrı-seçkilik edirsinizsə, günah işlədirsiniz, bir cinayətkar kimi Qanunla məhkum olunursunuz.

**12** Azadlıq qanunu ilə hökm olunacaq adamlar kimi danışın və bu cür hərəkət edin.

## İmanlılar arasında ayrı-seçkilik

### 1- Hər şeydən əvvəl, ayrı-seçkilik nədir? Məni başa sal.

Ayrı-seçkilik odur ki, mən şokolad paylayanda etdiyim kimi, müəyyən adamlara xüsusi yanaşırsan, amma başqalarına qarşı haqsız, ədalətsizsən.

["Ayrı-seçkilik"- zahiri şeylərin - məsələn, zahiri görünüş, içtimai durum yaxud irqin əsasında fərq qoyursan.]

## 2- Yaqubun dövründə müəyyən məsihçilər ayrı-seçkilik edirdi. Hansı şəraitdə – ayə 2 və 3?

Məbədin özündə toplantı zamanı! [İş vərəqi.] Müəyyən məbədlərdə çox gözəl paltar geyinmiş varlı adam içəri girəndə, ona xüsusi diqqət göstərilirdi və onu oturacağına yola salırdılar. O biri tərəfdən cındır paltar geyinmiş kasıb adam içəri girəndə, onu saymırdılar.

[Təsvir etdiyimiz bu vəziyyət fərziyyəyə əsaslanana oxşayır, amma bəzi məbədlərdə bu cür davranış açıq-aşkar var idi.]

## 3- Bizim qrupumuzda bu baş verə bilər?

Təsəvvür edin ki, iki cavan oğlan bizim yanımıza gəlib. Onlardan biri çox dəblidir, əynində ten-niska və onun üzərində məşqçilərin tanınmış markanın adı yazılıb; o çox arxayın və cazibədar görünür. İkincisi isə balacadır, pis geyinib və özünə əmin deyil. Belə bir vəziyyət olsaydı, biz iki gənci də eyni cür qarşılayardıq? Ola bilsin biz onlardan biri ilə daha çox maraqlanardıq. Gəlin boynumuza alaq ki, çalışıb hamıya eyni cür yanaşmaq lazımdır. Yaqubun təlimi indiki zamana da aiddir.

## Üsul: Vəziyyətin araşdırılması



Gəlin ayrı-seçkiliyin qurbanı olan insanların özünü necə hiss etdikləri haqda düşünək. [Gəncləri 2-3 adamdan ibarət qruplara paylayın. Onlar iş vərəğində verilmiş iki misalı oxumalıdır və sonra suallara cavab verməlidir.]

**Kerim:** "Bu axşam futbol oyunundan qabaq Pərviz və Davud komandaları seçdi. Onlar növbə ilə oyunçuları seçdi. Bilirsən, ən axırıncı kimi seçdilər? Həmişəki kimi məni! Komandanın başqa üzvləri məni qapıçı qoydu! Topu torun arxasından geri götürəndə mən ona yalnız beş dəfə toxundum."

**Diana:** "Mən bir-neçə həftədir ki, pəhriz saxlayıram, amma çəkim heç azalmayıb. Mən hələ də oğlanlarla münasibət qura bilmirəm. bu axşam mənim dostlarım məni pis vəziyyətdə qoydu - mənsiz kinoya getdi. Mən özümü əsl atılmış kimi hiss etdim!"

**Suallar:**

- Bu gənclər özünü necə hiss etməlidir?
- Hansı səbəblərə görə onlara yuxarıdan aşağı baxırdılar?
- Onların dostlarının münasibəti hansı tərəfdən düz deyildi?

## 4- Ayrı-seçkilik edənləri Yaqub nəyə görə təqsirləndirir – ayə 4?

Onlar tərəfgirlik göstərir və pis düşüncəli hakimlər olur [iş vərəqi]. Yaqub istəyir ki, biz içimizdə olan və bizi ayrı-seçkiliyə aparan şey haqda düşünək. Bizdə dünyanın ölçüsünə uyğun olaraq insanları üzə baxıb mühakimə etmək meyli var, xüsusilə də onların zahiri görünüşünə görə. O zaman biz yalnız müəyyən adamlarla yaxşı rəftar edirik.

## Üsul: "Həddindən artıq çox… yaxud kifayət deyil…"



Hansı səbəblərə görə bir gənc hərdən dostları tərəfindən qəbul olunmur?

[Lövhəni tən yarıdan iki yerə bölün. Bir tərəfdə "həddindən artıq çox...", başqasında "kifayət deyil..." yazın. Gənclərdən xahiş edin ki, bizim başqaları haqda tez yürütdüyümüz mühakimələri misal çəksinlər. Onların cavablarını qeyd formasında yazın. Pis sözlər qadağan olunur. Misallar: "həddindən artıq cavan, həddindən artıq kök, həddindən artıq utancaq, öz mədəniyyətinə görə həddindən artıq fərqli" yaxud "kifayət qədər dəbli deyil, kifayət qədər idmançı deyil..." Gənclər bu anlayışları öz iş vərəqlərində qeyd edə bilər:
zahiri görünüş, cins, irq, içtimai səviyyə, bacarıqlar...]

## 5- Amma Allah istəyir ki, sən dostları haqqında(yaxşı) mühakimə yeridəsən. Yaxşı ölçü nədir?

Sən xüsusilə onların ruhani və əxlaqi həyatına qarşı diqqətli olmalısan ki, onlarla nə qədər vaxt keçirəcəyini və onların sənə nə cür təsir etməsinə izin verəcəyini müəyyən edəsən. Öz mühakiməni bu cür yeritmək yalnız haqlı deyil, amma əhəmiyyətlidir.

Bizim araşdırdığımız bu hissədə Yaqub yenə nəyisə ifşa edir: tez, üzdən olan mühakimə, hansı ki, yanlışdır və insanlara qarşı nifrətə aparır. Bu düzgün deyil!

İlk dörd ayədə Yaqub ayrı-seçkiliyi ifşa edir. 5-ci ayədə olan "Qulaq asın, ey sevimli qardaşlarım" ifadəsi yeni hissənin başlanğıcınıa işarə edir. Yaqub bizə indi gedəcəyi yolu göstərmək istəyir.

## 6- Ayrı-seçkiliyə qarşı mübarizə aparmağa bizi ilhamlandırmaq üçün Yaqub 5-ci ayədə Allahın münasibəti haqqında danışır. Allah yoxsulla necə davranır?

O onları imanda zəngin olmağa və Səltənətin varisi olmaq üçün seçib. [iş vərəqi]. Yoxsullar Ona iman edəndə O onları xilas edir və onlara miras olaraq Öz Səltənətini verir.

[Qeyd: Yaqub demir ki, bütün yoxsullar yalnız onlar yoxsul olduğu üçün xilas olacaq, və o biri tərəfdən, bütün varlılar öz var-dövlətinə görə Səltənətə buraxılmayacaq. Elə görsənə bilər ki, "yoxsul" ifadəsi yalnız sıxışdırılanları yox, həm də ruhən yaxşı **yerləşdirilənləri** nəzərdə tutmaq üçün istifadə olunurdu.]

## 7- Allahın münasibəti ayrı-seçkiliyi göstərən münasibətdən nə cür fərqlənir?

Onun **sevimliləri** yoxdur, O heç kimi istisna etmir [iş vərəqi]. Yaqubun qabaqkı ayələrdə ifşa etdiyi nifrətə nə qədər ziddir! [Allahın istəkliləri olmadığını təsdiq edən başqa mətnlər: Qanunun Təkrarı 10:17-18; Koloslulara 3:25; Efeslilərə 6:9].

Allah səni "həddindən artıq belə" yaxud "həddindən artıq bu" olduğuna görə kənara qoymur. O sənin zahiri görünüşünə, şəxsiyyətinə, ailə vəziyyətinə, səhvlərinə, günahlarına və s. baxmayaraq səni sevir. O Öz ənamlarını Öz müəyyən istəkli adamları üçün saxlamır.

Onun sənin üçün olan ən böyük hədiyyəsi İsa Məsihdə xilasdır. Sənə bu hədiyyə lazımdır, çünki sənin günahların səni Allahdan uzaqlaşdırır. Öz səxavətinə görə O Öz Oğlunu sənin üçün ölməyə göndərdi. İsa ölülərdən dirildi və indi diridir ki, sənə bağış və həyat hədiyyəsini təklif etsin. Əgər sən hələ bu hədiyyəni qəbul etməmisənsə, imanda Ona yaxınlaşmaq istəmirsənmi? Sən İsanı Xilaskarın kilmi qəbul etsən və Ona öz Rəbbə kimi tabe olsan, sən də xilas olub böyük xeyir-dua ala bilərsən.

### 16 yaşı +

Yaşda daha böyük olan qrupda siz İsanın yerdəki həyatı zamanı hamıya qarşı olan bu məhəbbətin necə büruzə verdiyi haqda düşünə bilərsiz. Gənclərdən İncilin hansı hekayələrində Onun bitərəfliyini göstərdiyini soruşun. O samariyalının (Yəhya 4), cüzamlıların (Matta 8), vergiyığanların (Luka 19), dini rəhbərlərin (Yəhya 3)… köməyinə çatdı. Biz Ondan Onun baxışını diləməliyik ki, biz də başqalarının ehtiyaclarına həmin mərhəmətlə baxa bilək.

## 8- Sonra Yaqub Allahın Öz övladlarından nəyi gözlədiyini deyir. 8-ci ayədə adı gedən "Hökmdar Allahın Qanunu" nədir?

"Qanun" sözü tez-tez Əhdi-Ətiqə işarə kimi istifadə olunur (On Əmr yaxud Əhdi-Ətiq bütövlüklə). Amma öz məktubunda Yaqub bu sözünü daha geniş mənasında istifadə edir, bu Rəbb İsanın təlimində də var. Bu yolla onun üçün qanun - məsihçiyə aid Allahın tam iradəsidir [iş vərəqi], Əhdi-Ətiqin təlimi daxil olmaqla. Bu hökmdarın qanunudur, çünki göylərin və yerin Hökmdarı tərəfindən verilib.

## 9- Biz bu qanunun hansı əmrinə itaət etməliyik?

"Qonşunuzu özünüz kimi sevin" [iş vərəqi]. Allah bu əmri Öz xalqına Levililərə 19:18-də vermişdir. "Qonşu" sözü xüsusilə İsrailli həmvətənlərə aid idi. İsa yenidən bu əmri götürdü (Matta 22:39) və bizim əlaqədə olduğumuz hər kəsə, hətta əcnəbi (Luka 10:25-37) yaxud düşmənlərə (Matta 5:44) aid edərək onun mənasını genişləndirdi. Hər bir imanlı üçün Allahın iradəsi budur. Biz başqalarını sevməklə Allaha oxşamalıyıq.

## 10- Allahdan nümunə götürüb gələn günlərdə sən nə edə bilərdin?

Məktəbdə, musiqi dərsində, idman klubunda yaxud məbəddə gördüyün insanlar haqda düşün. Bəlkə sən fərqli olduğuna görə rədd olunan bir cavanı tanıyırsan.

Qarşıdan gələn günlərdə bu insana öz marağını göstərmək istəyərdinmi? Hərdən sən pulu çox olmayan insanlara rast gəlirsən. Sən onlara Allahın məhəbbəti ilə baxacaqsan? Bacardığın kimi onlara kömək edə bilərsənmi? Allahdan xahiş et ki, sənə bu həftə ərzində qəbul etdiyin məhəbbətlə bir az bölüşməyə kömək etsin.



## İllüstrasiya: Qatarda

Xüsusilə soyuq bir qış zamanı çox kasıb bir qadın qatara mindi. O vaqona girəndə insanlar üz döndərdi. O qoca idi və cır-cındıra geyinmişdi. O ən yaxın oturacaqda oturdu. Onun əlləri soyuğa görə kobud və yaralı idi. Növbəti dayanacaqda gözəl geyinmiş bir cavan oğlan qatara mindi. O bu qadının halına fikir verdi. Qatar sürətini azaldanda və dayananda o tez qadının yanından keçib vaqondan düşdü. Amma getməzdən qabaq o ehtiyatla qadının dizlərinə yun əlcəklərini qoydu. O imkandan istifadə edib ehtiyacı olana kömək etdi.

## 11- Sonunda, 9-cu ayədə Yaqub ayrı-seçkilik haqqında nə deyir?

Bu qanun tərəfindən mühakimə olunan günahdır [iş vərəqi]. Qonşuya qarşı sevgi ayrı-seçkiliyi qadağan edir. Tərəfgirlik Allahın bizə tətbiq etməyə əmr etdiyi məhəbbətə qarşı itaətsizlikdir. Biz Allaha itaətsizlik edirik və qanun bizi mühakimə edir.

### 16 yaşı +

Daha yaşlı qrupla araşdıra biləcəyiniz başqa ayələr: Levililər 19:15; Süleymanın məsəlləri 24:23; Məlaki 2:9; 1 Timotey 5:21.

Bir gün bütün imanlılar Allahın hökm kürsüsünün önündə dayanacaq. Bizim işlərimiz xırdalıqlarla yoxlanılacaq və Allah tərəfindən gözdən keçiriləcək. Yaqub bizə bunu birbaşa 12-ci və 13-cü ayələrdə deyir. Sən bir gün Allah tərəfindən töhmət edilənlər yaxud təbrik edilib mükafatlandıranlar arasında olacaqsan?



## Yekun: Bitirmək üçün cümlələr

Gəlin iş vərəğində bu cümləni bitirib bugünkü dərsi başa çatdıraq.

"Bu dərs mənə ... başa düşməyə kömək etdi və mən çalışaram..."



## Əlavə fikir: Ailə içində ayrı-seçkilik

Siz Bibliyada valideynlər tərəfindən göstərilən ayrı-seçkiliyin iki misalını araşdıra bilərsiz. Siz cavanlarla bu münasibətin səbəbini və nəticəni müzakirə edə bilərsiz.

- Yaradılış 25:28: İshaq Esavı sevirdi, Rivqa isə Yaqubu sevirdi.
- Yaradılış 37:3-4: Yaqub Yusifi o biri övladlarından çox sevirdi.

## Əlavə: İrqçilik haqqında video yaxud araşdırma

Bu dərs irqçilik mövzusuna yaxşı girişdir. Siz bir yerdə bu mövzuya aid reportaja yaxud internet saytlara baxa, sonra da bu materialı müzakirə edə bilərsiz.

# Ayrı-seçkilik

## Yaqub 2:1-12

**1** EY qardaşlarım! İzzətli Rəbbimiz Isa Məsihə imanınızı ayrı-seçkiliklə davam etdirməyin.

**2** Çünki əgər toplaşdığınız yerə qızıl üzük taxmış, qəşəng paltar geymiş bir adam girərsə, və
yoxsul, çirkli paltar geymiş adam da girərsə,

**3** Və siz qəşəng paltarı olana diqqət verib: Buyurun, siz burada əyləşin, yoxsula isə: Sən
orada dur, yaxud: Burada payəndazımın yanında otur, - deyərsinizsə,

**4** Öz aranızda ayrı-seçkilik etmirsinizmi? Və pis düşüncəli hakimlər olmursunuzmu?

**5** Qulaq asın, ey sevimli qardaşlarım: məgər Allah bu dünyanın yoxsullarını imanda zəngin
və Onu sevənlərə və'd etdiyi Səltənətin varisi olmağa seçmədimi?

**8** Əgər siz: Qonşunu özün kimi sev, - deyən Müqəddəs Yazıya görə Hökmdarımız Allahın
Qanununa həqiqətən riayət edirsinizsə, yaxşı iş görürsünüz.

**9** Yox, əgər ayrı-seçkilik edirsinizsə, günah işlədirsiniz, bir cinayətkar kimi Qanunla məhkum
olunursunuz.

**12** Azadlıq qanunu ilə hökm olunacaq adamlar kimi danışın və bu cür hərəkət edin.

## İmanlılar arasında ayrı-seçkilik

Yaqubun dövründə müəyyən məsihçilər ayrı-seçkilik edirdi. Hansı şəraitdə – ayə 2 və 3?

---

Kerim: "Bu axşam futbol oyunundan qabaq Pərviz və Davud komandaları seçdi. Onlar növbə ilə oyunçuları seçdi. Bilirsən, ən axırıncı kimi seçdilər? Həmişəki kimi məni! Komandanın başqa üzvləri məni qapıçı qoydu! Topu torun arxasından geri götürəndə mən ona yalnız beş dəfə toxundum."



Diana: "Mən bir-neçə həftədir ki, pəhriz saxlayıram, amma çəkim heç azalmayıb. Mən hələ də oğlanlarla münasibət qura bilmirəm. bu axşam mənim dostlarım məni pis vəziyyətdə qoydu - mənsiz kinoya getdi. Mən özümü əsl atılmış kimi hiss etdim!"

Suallar:

1- Bu gənclər özünü necə hiss eyməlidir?

2- Hansı səbəblərə görə onlara yuxarıdan aşağı baxırdılar?

3- Onların dostlarının münasibəti hansı tərəfdən düz deyildi?

Ayrı-seçkilik edənləri Yaqub nəyə görə təqsirləndirir – ayə 4?

______________________________________________

Hansı səbəblərə görə bir gənc hərdən dostları tərəfindən qəbul olunmur?

______________________________________________

# Allahda istəklilər yoxdur

Allah yoxsulla necə davranır?

______________________________________________

Allahın münasibəti ayrı-seçkiliyi göstərən münasibətdən nə cür fərqlənir?

______________________________________________

Sonra Yaqub Allahın Öz övladlarından nəyi gözlədiyini deyir. 8-ci ayədə adı gedən "Hökmdar Allahın Qanunu" nədir?

______________________________

______________________________



Biz bu qanunun hansı əmrinə itaət etməliyik?

______________________________

______________________________

Sonunda, 9-cu ayədə Yaqub ayrı-seçkilik haqqında nə deyir?

______________________________

Bu dərs mənə ______________________________

______________________________ başa düşməyə kömək etdi

və mən çalışaram ______________________________

______________________________

# Diri iman

## Yaqub 2:14-26



Məqsədlər

Gənc imanlılar

- başa düşəcəklər ki, iman yalnız ağılda olmamalıdır, amma əməllərə keçməlidir.
- əməllərdə Allaha itaəti və insanlara məhəbbəti ifadə edən diri imanı əldə etmək istəyəcəklər.
- öz imanını əməllərdə göstərmək, xüsusilə ehtiyacı olanlara kömək etmək üçün imkanlardan istifadə edəcəklər.

Xilas olmayanlar 14-cü ayəni araşdıranda başa düşəcəklər ki, yalnız «fəal iman» onlara xilası qəbul etməyə izin verəcək.



### Giriş: Telefon söhbəti

[Qrupunuzdan iki gəncdən xahiş edin ki, iki məsihçi dostunun telefon danışığını səhnəcikdə ifa eləsin. Könül Minaya zəng edib xahiş edir ki, ondan kömək istəsin və həftə ərzində müxtəlif fəaliyyətlərdə iştirak etməyə ruhlandırsın, amma Minaya bu maraqlı deyil.]

**K.** Şənbə günü axşam biz gənclər qrupu ilə Yaqubun məktubunu araşdıracayıq. Sən də gələcəksən?

**M.** Yox, gələ bilmərəm. O axşam televizorda çox yaxşı veriliş olacaq, ona baxmaq istəyirəm!

**K.** Üçüncü gün Müjdə paylamağa gedəndə sənə güvənə bilərik?

**M.** Əslində mən bəzi dostlarımla dükanlara getməyə planlaşdırırdım!

**K.** Samirə neçə gün xəstədir. Sabah səhər ona baş çəkməyinə necə baxırsan?

**M.** Çox heyfslənirəm, amma mən səhər yatmaq istəyərdim!

**K.** Mən boynuna almalıyam ki, məyus oldum. Sən düşünmürsənmi ki, məsihçi kimi biz başqalarına kömək etməyə hazır olmalıyıq və məbəd həyatında iştirak etməliyik?

Minanın imanı haqqında sən nə düşünürsən? O əməllərdə yoxdur. O deyir ki, Allaha iman edir, amma buna uyğun hərəkət etmir. Sən onun sözləri və yaşadığı həyatı arasında fərqi görə bilərsən. Bu problem səndə və məndə ola bilməzmi? Bu gün oxuyacağımız hissədə Yaqub iki cür imandan danışır: biri ölüdür, o biri diridir. Bu dərs sənin və mənim üçün özünü yoxlamağa və bizdə olan iman haqqında düşünməyə bir fürsətdir. [İş vərəqlərini paylayın.]

### Müqəddəs Kitabdan oxumaq üçün mətn: Yaqub 2:14-17,21-22,24

**14** Qardaşlarım, əgər bir kimsə əməlləri yox ikən, imanı olduğunu bildirirsə, bunun nə faydası vardır? O cür iman onu xilas edə bilərmi?

**15** Əgər qardaşlarınızdan və yaxud bacılarınızdan biri çılpaqdırsa və gündəlik yeməkdən məhrumdursa,

**16** Və sizlərdən biri onlara, “Salamat gedin. Isinin və doyun”, - deyib, onların bədəni üçün zəruri olan şeyləri vermirsə, nə faydası vardır?

**17** Iman da bu cürdür: əgər əməlləri yox isə, özü-özlüyündə ölüdür.

**21** Məgər atamız Ibrahim öz əməlləri ilə saleh sayılmadımı? O, oğlu Ishaqı qurbangahın üstündə Allaha təqdim etdi.

**22** Görürsən ki, iman onun əməlləri ilə birgə hərəkət edirdi və iman əməllərlə kamil olmuşdur.

**24** Görürsünüz ki, insan yalnız imanla deyil, əməlləri ilə də saleh sayılır.

## Müəllim üçün qabaqcadan verilən qeyd:

Bu hissəni oxuyanda bizə elə gələ bilər ki, Yaqubun təlimi Həvari Pavelin təliminə ziddir. Pavel deyir ki, biz imanla saleh sayılırıq, əməllərlə yox (Qalatiyalılara 2:16; Romalılara 3:26), amma Yaqub bizi əmin edir ki, biz yalnız imanla yox, amma əməllərlə də saleh sayılırıq (2:24). Əslində onlar iki müxtəlif problemə toxunur. Onların təlimi bir-birini tamamlayır:

- Pavel qeyri-yəhudilərdən danışır: onlar Qanunda yazılan ritual işlərini görüb xilası qazanmağa çalışırlar. Həvari Pavel bu işlərin effektivliyinə görə Allah tərəfindən saleh sayılmaq və Onunla ünsiyyətə girmək fikrini rədd edir.
- Yaqub özü nəzəriyyədə İsaya inanan, amma öz imanını əməllərlə ifadə etməyən məsihçilər haqqında düşünür. Yaqub üçün bu işlər Allaha itaət etmək və qonşusunu sevməkdə tamamlanır. O deyir ki, bunlar mühümdür və Allahın bizim həyatlarımıza verəcəyi qərar baxımından O onları nəzərə alacaq.

# Ölü iman

## 1- 14-cü ayəyə əsasən Yaqub məbədlərdə olan bəzi insanlar barədə hansı problemi gördü?

Onlar deyirlər ki, imanları var, amma əməllərdə bunu göstərmirlər [iş vərəqi]. Biz görürük ki, indicə danışdığımız Minanın münasibəti o dövrdə hətta məbədlərin içində görünürdü. (15-ci ayədə "qardaş" və "bacı" sözlərinin istifadəsinə baxın).

## 2- Yaqub deyir ki, bu cür "iman" xilas edə bilməz. O nə cür "imanı" nəzərdə tutur?

Ağıl inamı və şifahi sənəti [iş vərəqi]. Elə gəlir ki, Yaqub "iman" sözünə İncilin başqa müəlliflərin verdiyi mənasından da məhdudlaşdırılmış məna verir. Bu Allah haqqında doktrinalara sadiq qalmaqdır, "pak ortodoksallıq"lıqdır (ortodoksallıq - bir məsləkin sabit və ardıcıl tərəfdarı olmaq). Amma Həvari Pavel "iman" sözünü Allaha etibar edib Ona itaət etməsinə aid istifadə edir.

## 3- Niyə görə "nəzəri" yaxud "şifahi iman" bizə xilasın xeyirini vermir?

Müəyyən həqiqətlərə inanmağını bəyan etmək kifayət deyil. Sən günahdan üz döndərib Allaha etibar etməlisən ki, Məsihin çarmıxda tamamladığı işdən faydalanasan.



## Üsul: Tamamlamaq üçün mətn

Xilas öhdəçiliyini yerinə yetirmək üçün yalnız başımız (anlama) yox, amma ürəyimiz (emosiyalar) və əllərimiz (əməllər) lazımdır.

[Lövhədə aşağıda göstərilən üç işarəni və cümlələrin əvvəlini qoyun. Qrup onları tamamlamağa çalışmalı olacaq. Bir könüllü lövhədə təklifləri yazacaq. Sonra siz lazımi səhvləri düzəldib gəncləri öz iş vərəqlərini doldurmağa ruhlandıra bilərsiz.]

Mən başa düşürəm... [Allah kimdir və mən hansı günahlı vəziyyətdəyəm.]

Mən çox peşimanam ki, ... [günahlarım məni Ondan ayırıb] və mən əminəm ki,... [İsanın çarmıxda gördüyü iş effektlidir.]

Mən... [günahımdan] üz döndərirəm və ... [Allaha] etibar edirəm ki, O... [məni xilas edəcək və indidən başlayaraq həyatımı himayəsi altına götürəcək.]

Sən günahından üz döndərmisən? Allaha etibar etmisən? Öz həyatının üzərində nəzarəti Ona vermisən? Əgər bunları etmisənsə, Allah sənə Öz xilasını verəcək və indidən başlayaraq sən öz imanını əməllərdə göstərməlisən.

### 16 yaşı +

Əgər siz yaşda daha böyük qrupu öyrədirsinizsə, bu mərhələdə 19-cu ayəyə baxa bilərsiz. Cinlərin məsələsi güclü təsdiq edir ki, ağıl inamı və emosiyalar Allahın Səltənətinə yol vermir: İman edirsənmi ki, Allah birdir? Yaxşı edirsən; cinlər də iman edir və titrəyirlər.

## 4- Məsihçi nə cür əməl etməlidir?

Aşağıdakı ayələrə görə Yaqubun ağlında xüsusilə Allaha itaət və başqalarına qarşı

məhəbbət var [iş vərəqi]. Qabaqkı dərsdə Yaqub 2:8-i araşdıranda gördüyümüz kimi, ilahi tələblərin ürəyində məhəbbət var. Bu ən yüksək əmrdir. İman bizim münasibət və əməllərimizə belə təsir etməlidir. Onlarda Allaha itaət olmalıdır və onlar Onun məhəbbətini əks etdirməlidir. Çox təəssüf ki, məsihçinin bu əlamətləri Yaqubun dövründə bəzi insanlarada görünmürdü. Onlar deyirdilər ki, Allaha inanırlar və məbədə gedirlər, amma onların imanı əməllərdə yox idi.

### 5- 15 və 16-cı ayələrdə Yaqub bir şəkil istifadə edir. Əməlləri olmayan imanı o nə ilə müqayisə edir?

Kasıblar üçün heç nə etməyib onlara salamat qalın deyən məsihçilərə [iş vərəqi]. Öz "bacı" və "qardaşların" paltar və yemək kimi əsas ehtiyaclarını görüb onlara yaxşı şeylər arzulayır, amma kömək etmək üçün heç nə etmir. Yaqub aydın göstərir ki, sözlər kifayət deyil. Onlarla yanaşı xeyirxah əməllər də olmalıdır. Eyni cür bizim imanımız əməllərə dönməlidir. Əgər Yaqub bizim aramızda olsaydı, o eyni şeyləri görərdimi? Sən yaxşı sözlər deyib kifayətlənirsən, yaxud imanı əməllərdə göstərirsən?



### İllüstrasiya: Ölü ağac

İman ölü ağac kimi ölü ola bilər. Onun görünüşü qəmlidir, yarpaqları və meyvələri yoxdur. Çürümüş ağacın budaqlarında quş yuva qurmaz. Əgər iman öhdəlik olunmadan yalnız şifahi sənətdirsə, o da belədir və heç bir şey üçün yaralı deyil.

## Diri iman

Allah istəyir ki, bizim imanımız diri olsun, əməllərdə olsun. Bu səhifənin o biri tərəfində başqa ağac var. Bu ağac təmtəraqlıdır və həyatla doludur. Yayda yaxud payızda o çox bəhrə verir və onlardan başqaları faydalana bilir.






### Üsul: Qruplarda krossvord

Gəlin indi məsihçinin necə hərəkət etməli olduğunu göstərən bir-necə ayəyə baxaq. [Gəncləri dörd-beş nəfərdən ibarət qruplara bölün və bu tapşırıq üçün onlara 15 dəqiqə verin].

- Aşağıdakı ayələri oxuyun.
- Hər hissədə açar əsası var. Hər əsası krossvorda yerləşdirin. (Zəhmət olmasa qeyd edin: krossvorda qoyulmalı əsl sözlər mətndə deyil.
- Onları krossvordda dik qaydada yerləşdirin.
- Krossvordun horizontal cərgəsini tamamlayın.
- Sonra iki sualı istifadə edərək müzakirə edin.

| | |
|---|---|
| 1- Ezra 7:10 | Bibliyanı ÖYRƏNMƏK və tətbiq etmək. |
| 2- Efeslilərə 6:18 | Mətanətlə DUA etmək. |
| 3- İbranilərə 10:25 | Başqa məsihçilərlə GÖRÜŞMƏK. |
| 4- Yaqub 1:27 | Ehtiyacı olanlara KÖMƏK ETMƏK. |
| 5- 2 Korinflilərə 9:7 | Allahın xalqının ehtiyacını ödəmək üçün VERMƏK. |
| 6- Həv. İşləri 1:8 | Başqalarına İsa haqqında ŞƏHADƏTLİK etmək. |

Fikirləşmək üçün suallar:

- Bu sahələrdən hansında sizə ən çətindir?
- Sən onların öhdəsindən necə gəlirsən?

Yalnız Allah bizə imanımızı əməllərdə göstərmək qabiliyyətini verə bilər.

### 16 yaşı +

Yaşda daha böyük qrupla siz içtimai hərəkətinin vacibliyini qeyd edə bilərsiz. Matta 25:31-46-ə görə İsa "ən kiçik qardaşlarımdan birinə" yemək və paltar verənlərə səltənəti vəd edir. Həmçinin 1 Yəhya 3:17-18 baxın.

### 6- Bizə diri imanı təsvir etmək üçün Yaqub İbrahimi misal çəkir. 21-ci ayədə o bizim diqqətimizi bu adamın həyatında baş verən hansı məşhur hadisəyə cəlb edir?

İshaqın qurban gətirilməsi [iş vərəqi]. Gəlin Yaradılış 22:1-2 oxuyaq.

### 7- Niyə görə İbrahimə o gün Allahdan qəbul etdiyi əmrinə itaət etməyə son dərəcədə çətin idi?

İshaq vəd edilmiş yeganə oğul idi [iş vərəqi]. Allahın İbrahimin nəsli haqqında dediyi bütün vədlər bu uşağın üzərində cəmlənirdi. İnsanı qurban gətirmək dəhşətlidir, xüsusilə də öz övladını. Bundan başqa, bu əməl rəsmi olaraq Allah tərəfindən məhkum olunurdu [iş vərəqi]. Beləliklə, Allahın əmri anlaşılmaz idi. İbrahim ciddi sınağa çəkilirdi. Aşağıdakı ayələr bizə heyrətə salan və təəccübləndirən itaəti göstərir. Gəlin Yaradılış 22:3-12 oxuyaq.

### 8- Rəbbin mələyi İbrahimi saxladı və ona dedi: "İndi bildim ki, sən Allahdan qorxursan." Mələyin bu sözlərinə əsasən bu sınağın məqsədi nə idi?

Bu İbrahimin öz Allahına olan ehtiramlı imanını göstərirdi [iş vərəqi]. Bu itaət göstərdi ki, İbrahimin imanı yalnız nəzəri deyildi, amma hərəkətli idi və bu iman İbrahimi Allahın bütün əmrlərinə onların çətinliyinə və qəribəliyinə baxmayaraq riayət etməyə vadar etdi. Yaqub 2:21 görə İbrahim bu hərəkəti ilə Allahın tərifini əldə etdi. Allah bizim imanımızı hərəkətdə görmək istəyir.

#### 16 yaşı +

Siz gənclərdən soruşa bilərsiz İbrahim yenə hansı vəziyyətlərdə öz imanını təəccübləndirici yolla əməllərdə göstərib. Siz bir yerdə İbranilərə 11:8 baxa bilərsiz: Ibrahim iman vasitəsilə Allahın öz evini tərk etmək çağırışına itaət etdi. O haraya getdiyini bilmirdi. Bu yolla İbrahim öz imanını Allaha itaət edərək və Ona sevgi göstərərək bir-neçə dəfə işə saldı (məşq etdi).

### 9- Yaqub 2:22 yekun vurur ki, iman və əməllər şərik yoldaşdır. Bir tərəfdən iman əməllər doğurur. O biri tərəfdən... bu ayənin sonunda Yaqub nə əlavə edir?

İman əməllərlə kamil olur [iş vərəqi]. Bu tərəfdən əməllər imanı tam çiçəkləndirir. [Burda istifadə olunan fel "kamil", "yetkinliyə çatdırmaq" mənasını verir.] İbrahimin təcrübəsi onun Allah haqqında olan biliyini genişləndirdi və onun Ona olan etibarını inkişaf etdirdi. Beləcə əməldə göstərilən itaətkarlıq kamil iman yaradır.

### 10- Allah bizim həyatımıza nə əsasında qiymət verir – ayə 24?

İmanımız (əsası) və əməllərimizə (zahiri əlamət) görə [iş vərəqi]. Yaqub təkid edir ki, bizim əməllərimiz yoxlanılır və şahidlik etməlidir ki, bizim diri imanımız var. Biz deyə bilərdik ki, Allah yarpaqlara və meyvələrə baxır, çünki onlar ağacın vəziyyətini göstərir. İbrahimlə etdiyi kimi, Allah bizim həyatımızı hökm edəndə imanımızı və əməllərimizi nəzərə alır. [Elə görünə bilər ki, Yaqub "bəraət qazandırmaq" sözünü biz imana dönəndə bizə verilən statusu bildirmək üçün yox, amma Allahın bizim həyatlarımıza görə göstərdiyi məmnunluğu haqqında danışmaq üçün istifadə edir.]

İndi krossvordu dolduraraq, ola bilsin sən öz imanını hələ kifayət qədər tətbiq etmədiyin xüsusi sahə haqqında düşündün. Gələcəkdə həyatının bu xüsusi aspekti üzərində çalışmaq istəyərdin? Öz Allahını razı salmaq istəyirsən?



### Yekun: Telefon zəngi

Fikirləşdikdən sonra Mina öz dostu Könülə zəng etmək qərarına gəlir:

M. "Mən sənə zəng etdim ki, deyim: sabah Samirəyə baş çəkmək üçün mənə güvənə bilərsən. Mən də məbəd həyatını üstün tutmaq niyyətindəyəm.

K. Əla, bəs sənin fikrini nə dəyişdi?

M. Sənin qabaq dediyin sözünə xor baxmadım. Mən imanımı əməllərdə göstərməliyəm!"

# Diri iman

## Yaqub 2:14-26

14 Qardaşlarım, əgər bir kimsə əməlləri yox ikən, imanı olduğunu bildirirsə, bunun nə faydası vardır? O cür iman onu xilas edə bilərmi?

**15** Əgər qardaşlarınızdan və yaxud bacılarınızdan biri çılpaqdırsa və gündəlik yeməkdən məhrumdursa,

**16** Və sizlərdən biri onlara, "Salamat gedin. Isinin və doyun", - deyib, onların bədəni üçün zəruri olan şeyləri vermirsə, nə faydası vardır?

**17** Iman da bu cürdür: əgər əməlləri yox isə, özü-özlüyündə ölüdür.

**21** Məgər atamız Ibrahim öz əməlləri ilə saleh sayılmadımı? O, oğlu Ishaqı qurbangahın üstündə Allaha təqdim etdi.

**22** Görürsən ki, iman onun əməlləri ilə birgə hərəkət edirdi və iman əməllərlə kamil olmuşdur.

**24** Görürsünüz ki, insan yalnız imanla deyil, əməlləri ilə də saleh sayılır.

14-cü ayəyə əsasən Yaqub məbədlərdə olan bəzi insanlar barədə hansı problemi gördü?

______________________________________________

Yaqub deyir ki, bu cür "iman" xilas edə bilməz. O nə cür "imanı" nəzərdə tutur?

______________________________________________

Xilas öhdəçiliyini yerinə yetirmək üçün başımız, ürəyimiz və əllərimiz lazımdır.

Mən başa düşürəm ________
______________________
______________________
______________________
______________________
______________________

Mən çox peşimanam ki, _____
______________________
______________________
və mən əminəm ki, ________
______________________
______________________

Mən ____________________
__________ üz döndərirəm
və ________etibar edirəm ki,
O_______________________
______________________
______________________



Məsihçi nə cür əməl etməlidir?

______________________________________________

15 və 16-cı ayələrdə Yaqub bir şəkil istifadə edir. Əməlləri olmayan imanı o nə ilə müqayisə edir?

______________________________________________

______________________________________________



1- Ezra 7:10
2- Efeslilərə 6:18
3- İbranilərə 10:25
4- Yaqub 1:27
5- 2 Korinflilərə 9:7
6- Həv. İşləri 1:8




Fikirləşmək üçün suallar:
- Bu sahələrdən hansında sizə ən çətindir?
- Sən onların öhdəsindən necə gəlirsən?

Bizə diri imanı təsvir etmək üçün Yaqub İbrahimi misal çəkir. 21-ci ayədə o bizim diqqətimizi bu adamın həyatında baş verən hansı məşhur hadisəyə cəlb edir?

Niyə görə İbrahimə o gün Allahdan qəbul etdiyi əmrinə itaət etməyə son dərəcədə çətin idi?

Rəbbin mələyi İbrahimi saxladı və ona dedi: “İndi bildim ki, sən Allahdan qorxursan.” Mələyin bu sözlərinə əsasən bu sınağın məqsədi nə idi?



Yaqub 2:22 yekun vurur ki, iman və əməllər şərik yoldaşdır. Bir tərəfdən iman əməllər doğurur. O biri tərəfdən... bu ayənin sonunda Yaqub nə əlavə edir?

Allah bizim həyatımıza nə əsasında qiymət verir – ayə 24?

# Dil

## Yaqub 3:3-12



### Məqsədlər

Gənc imanlılar

- başa düşəcəklər ki, dil çox yaxşılıq, amma həm də zərər verməyə qadirdir.
- dərk edəcəklər ki, onu özləri idarə etməkdə uğurlu olmayacaq, amma onlara Rəbbin köməyi lazım olacaq.
- öz dilini ehtiyatla istifadə edəcəklər və öz valideynləri, dostları və müəllimləri ilə xoş danışmağa çalışacaqlar.

Xilas olmayanlara İsanın dediyi bu sözlər təsir edəcək: "Çünki ağız ürəkdən gələni söyləyir." (Matta 12:34). Onlar görəcəklər ki, onlara Məsihi qəbul edib Onun məhəbbəti ilə dolmaq lazımdır.



### Giriş: Tapmaca oyunu

[Dərsin mövzusunu bildirməmək üçün iş vərəqlərini gizlədin.]

- Mən balaca olsam da, böyük şeylər etməyə bacarıram!
- Mən müvəffəqiyyətlə yaxşılıq edirəm, amma hərdən çoxlu zərər də verirəm!
- Mən ətli, əzələli, hamar, hərəkətli bədən üzvüyəm.

Mən kiməm?... Dil!

Bu məktubun üçüncü fəsilində Yaqub başqa problem haqda danışır: dilin idarə etməsi: (halbuki o artıq 1-ci fəsilin 19-cu və 26-cı ayələrdə bu mövzuya toxunub). O heyranedici illüstrasiyalarını istifadə edib bizə bədənimizin bu üzvü ilə xüsusilə ehtiyatlı olmaq lazım olduğunu göstərir. Yalnız Allah dilini pislik etməkdən saxlaya bilər. [Hər gəncə iş vərəğini paylayın.]

### Müqəddəs Kitabdan oxumaq üçün mətn: Yaqub 3:3-12

**3** Budur, biz atların ağzına yüyən taxırıq ki, bizə itaət etsinlər və bütün bədənini də idarə edirik

**4** Baxın, gəmilər də böyük olduqları və güclü küləklər tərəfindən aparıldıqları halda, sükançının könlü haraya istərsə, kiçicik bir sükanla oraya çevrilir.

**5** Dil də belədir. O kiçik bir üzvdür, amma çox lovğalanır. Bax, kiçik bir alov nə böyük bir meşəni yandırır!

**6** Dil alovdur. O, haqsızlıq aləmidir. Dil, üzvlərimizin arasında /elə/ yerləşir ki, bütün bədənimizi çirkləndirir və özü cəhənnəm tərəfindən alovlandırıldığı kimi, bizim həyatımızın dövranını da alovlandırır.

**7** Çünki istər heyvanların, istərsə də quşların, istər sürünənlərin, istərsə də dəniz məxluqlarının hər cinsi insan soyu tərəfindən əhliləşdirilir və əhliləşdirilmişdir

**8** Dili isə heç bir insan əhliləşdirə bilmir. Dil, qarşısı alınmaz bəladır və öldürücü zəhərlə doludur.

**9** Biz dil ilə Allahı və Atanı təqdis edirik. Və dil ilə də Allahın surətində yaradılmış adamlara lə'nət oxuyuruq.

**10** Təqdis və lə'nət eyni ağızdan çıxır. Qardaşlarım, bu belə olmamalıdır.

**11** Məgər bir bulağın eyni gözündən şirin və acı su çıxarmı?

**12** Qardaşlarım, məgər əncir ağacı zeytun, üzüm meynəsi də əncir yetişdirə bilərmi? Beləcə heç bir bulaq həm duzlu, həm şirin su hasil edə bilməz.

16 yaşı +

Yaşda daha böyük olanları öyrədirsinizsə, siz bu fəsilin ilk iki ayəsini daxil edə bilərsiz. Yaqub müəllim olmaq istəyən və məsihçi təlimi öyrətmək üstünlüyünə malik olan insanlara xəbərdarlıqla müraciət edir. Yalnız az adam oxumağı bacaran dövrdə bu xidmətin böyük hörməti var idi. Yaqub narahat idi ki, bəzi məsihçilər yanlış məqsədləri ilə bu xidmətə qatlaşırdı. O onları xəbərdar edir ki, Rəbb müəllimlərə əsaslı surətdə qiymət verəcək, çünki onlar məsihçiləri imanda qidalandırmaq kimi ağır işdə məsuliyyət daşıyır. Fəsilin qalan hissəsi ümumi təlim verir və yalnız müəllimlərə aid deyil.

## Dilin qüvvəti

### 1- 3 və 4-cü ayələrdə Yaqub dili nə ilə müqayisə edir?

Atları idarə edən yüyənlə və böyük gəmiləri idarə edən sükanla [iş vərəqi]. Atlar hərdən idarə olunmazıdır, amma balaca zirək əşya onu idarə etmək üçün kifayətdir. Üzən qayıqları güclü küləklər itələyəndə o qayıqlar tam sürətini alır, amma balaca sükan onları lazımlı istiqamətə yönəldir. Beləliklə, balaca əşyalar ən güclü qızışmaları idarə etməyi yaxşı bacarır.

### 2- Bu ilk iki illüstrasiya nəyi açır – ayə 5a?

Dil balacadır, amma böyük işlər görə bilər [iş vərəqi].

O insanlara və hadisələrə güclü təsir edə bilər. [Yaqub dilini təmsil edəndə, bunu 1-ci fəsilin 14 və 15-ci ayələrdə pis arzuları, günahı və ölümü təmsil edən kimi etdi.]



### İllüstrasiya: Südpaylayan kişinin sözləri

5 yaşlı Çeril Amerikada yaşayırdı və baqqalın qızı idi. Hər səhər o dükanın küncündə oturub gələn südpaylayan kişiyə baxırdı. O kişi qapıdan keçəndə qız ona deyilən bu sözlərini eşitməyə sevirdi: "Mənim balaca Miss Amerika necədir?" Bu bir-neçə söz Çerilin ağlında cücərdi və onun arzusunun məqsədi oldu. 1980-cu ildə Çeril Previt gözəllik kraliçası oldu. Adi südpaylayan kişinin sözləri nə cür təsirli ola bilər!

### 3- Bizim sözlərimiz başqalarına çox təsir edə bilər. Hansı şəraitlərdə onlar çox yaxşılıq edə bilər?

- Kimsə kədərli olanda təsəlli verən sözlər;
- Kimsə səhv edəndə xəbərdarlıq edən sözlər;
- Kimsə rədd olunanda sevgi sözləri;
- Kimsə çətinliyə düşəndə ruhlandırma sözləri...

Bizim sözlərimiz çox insanı canlandıra, bərpa edə və şəfaverici balzam(məlhəm) ola bilər (Sül.Məsəlləri 10:21; 12:18).

## Dilin gətirdiyi zərər

### 4- Yaqub davam edir və 5b və 6-cı ayələrdə dili alovla müqayisə edir. Bu illüstrasiya qabaqkılarından necə fərqlənir?

Bu göstərir ki, dildə dağıdan qüvvə də ola bilər [iş vərəqi]. Yerə düşən adi kibrit kifayətdir ki, bütün meşəni yandırsın və onu külə döndərsin. Bir vaxtlar yayda televiziyada gördüyümüz şəkillər bu idi: cənubi Avropada alov geniş sahələri viran qoyur. ["Meşə" kimi tərcümə olunan söz həm də "fırça" ola bilər. Fələstin təpələri tez-tez onunla örtülür. Yanğın başlayanda o tez yayılırdı və bunun nəticəsi fəlakətli olurdu.]

16 yaşı +

Siz bu yaş qrupuna başa sala bilərsiz ki, dilin alovla edilən bu müqayisə Müqəddəs Kitabının başqa yerlərində istifadə olunur. Süleymanın Məsəlləri 16:27: "Yaramaz şər quyusu qazar, dili alov kimi yandırıb-yaxar." Süleymanın Məsəlləri 26:21: "Necə ki kömür köz salar, odun alışar, davakar adam da münaqişəni bu cür alovlandırar."

## Üsul: Gizlənmiş sözlər

6-cı ayə deyir ki, dil "haqsızlıq aləmidir". Bu sxemdə dilin pis istifadəsini göstərən bir-neçə ifadə var.

Onları dövrəyə al.

[Yeniyetmələr sözlərini tapanda, siz onlardan o sözlərini başa salmağa xahiş edə bilərsiz.]

| | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| D | M | P | L | F | K | T | Z | C | P | R | F | R | T | C |
| N | E | P | C | B | J | B | C | O | G | I | H | K | B | Q |
| Q | W | Y | K | T | Z | K | O | B | U | D | L | U | Q | A |
| R | Ş | O | I | C | L | F | T | A | N | I | E | G | J | M |
| S | Y | İ | V | N | T | D | B | C | O | F | H | O | W | N |
| Y | P | D | T | A | M | G | Ü | A | L | I | V | Ğ | A | A |
| K | V | R | O | E | Q | Ə | I | U | B | K | T | Ç | N | L |
| E | R | W | J | O | C | O | K | V | Z | F | A | P | Z | A |
| Q | E | Y | B | Ə | T | E | T | M | Ə | K | Y | P | O | Ğ |
| S | M | D | L | F | R | J | S | A | O | L | O | I | P | V |
| O | U | D | N | Ə | Ğ | Ş | İ | R | N | F | C | N | E | O |
| M | B | G | H | K | L | F | K | T | E | A | H | G | G | L |

## 5- Yaqub dil "cəhənnəm tərəfindən alovlandırılır" deyəndə nəyi nəzərdə tuturdu?

Dilə dağıdıcı qüvvəni verən şeytandır [iş vərəqi]. Cəhənnəmdə hökmranlıq edən şeytandır. O bizim sözlərimizi dağıdıcı və zərərli qüvvəyə bürüyür. Tarix bizə Adolf Hitler kimi sarsıdıcı nümunələri gətirir. Şeytan öz gözəl nitq qabiliyyətini istifadə edir ki, millətlər arasında viranəçilik olsun.

## Üsul: Hadisənin araşdırılması

Gəlin aşağıdakı misaldan baxaq görək söz bizim başqaları ilə münasibətlərimizi necə korlaya bilər. "Samir öz dərslərində geridə qalıb. Bir-neçə pis nəticədən sonra o hər imtahanı valehedici asanlıqla keçən dostu Pərvizə paxıllıq edir. Məktəbin futbol sahəsində Samir öz dostuna deyir: 'Mən əminəm ki, Pərviz fırıldaqçılıq edir.' Samir bu xəbəri yayır: 'Görünür ki, Pərviz imtahanlar zamanı fırıldaqçılıq edir!' Bu şayiələr bütün sinifdə yayılır. Yalnız az adam bu xəbərə inanmır. Beləliklə Pərvizin adı korlanır. Növbəti gün kimsə ona 'murdar yalançı' deyəndə Pərviz təəccüblənir və özünü müdafiə etməyə çalışır. Sonra ona qarşı yenə bir-neçə nəfər qalxır. Amma Samir məsafə saxlayır; o etdiyi işə görə peşiman oldu, amma düşünür ki, öz sözlərini geri götürmək artıq gecdir."

1-Böhtan (dedi-qodu) necə başlandı? O necə yayıldı?

2-Pərviz, Samir və onların dostları üçün bunun nəticəsi nə oldu?

3-Dilini belə pis istifadə etməmək üçün sən nə edə bilərsən?

## Vinston Çörçilin sözləri

"İnsanın qüvvəti hər sahədə, hətta öz üzərində də böyüyüb."

Əslində bu təəccüblüdür ki, insan kimisə aya göndərib geri qaytara bilər. Amma bizim sözlərimizə çatanda biz onların hara düşəcəyini və onların necə təsir edəcəyini idarə edə bilmirik.

Eyni dərəcədə, Yaqub 7 və 8-ci ayələrdə göstərir ki, insan vəhşi heyvanları əhliləşdirə bilir, amma öz dilinə qalib gələ bilmir. Amma insanlar üçün qeyri-mümkün olan işlər Allah üçün mümkündür. (Luka 18:27). O bizə kömək etmək istəyir və bunu edə bilər.

# Dil həm acıdır həm şirin

## 6- 9 və 10-cu ayələr deyir ki, biz öz ağzımızla iki zidd olan şeyi edirik. Bunlar hansılardır?

Allaha alqış edirik = Onu izzətləndiririk, tərifləyirik [iş vərəqi].

İnsanları lənətləyirik = onlara pislik arzu edirik [iş vərəqi], onların əbədi Allahdan ayrılmasını istəyirik. Belə sözlər qəbul olunmazdır, çünki insanlar Allahın surətində yaradılıb.

Beləcə bizim dilimiz ən yaxşısını və ən pisini etməyə bacarır. Ən gözəl və ən alçaq sözlər eyni ağızdan çıxır.

## 7- Bizim öz dilimizi ziddiyyətli istifadə etdiyimizi göstərmək üçün Yaqub 11-ci ayədə nəyi təsvir edir?

Şirin və açı su eyni bulaqdan gəlmir [iş vərəqi]. Eyni zamanda Fələstin sakinləri üçün quyuda içməli suyun olması çox əhəmiyyətli idi. Kəndin yaşayışı bundan asılı idi. Amma birbaşa bulaqdan gələn su bir an təmiz olmasa da sonra duzludur!

## 8- 12-ci ayədə Yaqub təbiətin qanununa müraciət edir: meyvə onu gətirən ağaca uyğun olur. Bu sonuncu təsvir bizimlə necə əlaqəlidir?

Bizim sözlərimiz göstərməlidir ki, biz Məsihə məxsusuq [iş vərəqi]. Allahın övladı üçün acıqlı sözlər danışmaq düzgün deyil.

## 9- Yaqubun bu təlimi bizim yadımıza Matta 12:34-dən İsanın sözlərini salır: "Çünki ağız ürəkdən gələni söyləyir." Sənin və mənim ürəyim nə ilə doludur?

İçimizdə günah hökm sürürsə, bu qaçılmazdır ki, bizim dilimiz tez-tez pisliyə səbəb olacaq. Bizim pis sözlərimiz bizi Allahın məhkumiyyəti altına salır (Matta 12:37). Rəbb İsadan xahiş et ki, səni təmizləsin (1 Yəhya 1:7) və sənin ürəyini Öz məhəbbəti ilə doldursun. Yalnız yaxşı ürəkdən gözəl sözlər çıxar.



## Əyani dərs: Stəkan su

Əgər biz stəkanı su ilə doldursaq və sonra ona zərbə vursaq nə olacaq? Bu qaçılmazdır ki, su stəkanın qırağından aşıb töküləcək. Bizim münasibətlərimizdə başqaları bizə tez-tez "zərbə vurur". Bizim ağzımızdan nə çıxır? Əgər qəlbimiz hələ də nifrətlə doludursa, bizim sözlərimiz acıqlı, qəzəbli olacaq. Amma əgər bizim ürəklərimiz Rəbbin xeyirxahlığı ilə doludursa, bizim sözlərimiz yaxşı olacaq.



## Yekun

Sən Davudun bu duasını istifadə edərək Allahla danışa bilərsən: "Ya Rəbb, ağzıma nəzarətçi qoy, dodağımın qapısını qoru." (Zəbur 141:3). Allah səni Özünə bənzətmək işini davam edə bilər. O sənin dilini qoruyub sənə valideynlərin, müəllimlərin və dostlarınla məhəbbətlə danışmağa kömək edə bilər. Ondan bunu xahiş et. [Dua ilə bitir.]

"Çünki ağız ürəkdən gələni söyləyir" (Matta 12:34).

"Ya Rəbb, ağzıma nəzarətçi qoy, dodağımın qapısını qoru." (Zəbur 141:3).

# Dil

## Yaqub 3:3-12



3 Budur, biz atların ağzına yüyən taxırıq ki, bizə itaət
etsinlər və bütün bədənini də idarə edirik
4 Baxın, gəmilər də böyük olduqları və güclü
küləklər tərəfindən aparıldıqları halda, sükançının
könlü haraya istərsə, kiçicik bir sükanla oraya
çevrilir.
5 Dil də belədir. O kiçik bir üzvdür, amma çox
lovğalanır. Bax, kiçik bir alov nə böyük bir meşəni
yandırır!
6 Dil alovdur. O, haqsızlıq aləmidir. Dil, üzvlərimizin arasında /elə/ yerləşir ki, bütün bədənimizi
çirkləndirir və özü cəhənnəm tərəfindən alovlandırıldığı kimi, bizim həyatımızın dövranını da
alovlandırır.
7 Çünki istər heyvanların, istərsə də quşların, istər sürünənlərin, istərsə də dəniz məxluqlarının
hər cinsi insan soyu tərəfindən əhliləşdirilir və əhliləşdirilmişdir
8 Dili isə heç bir insan əhliləşdirə bilmir. Dil, qarşısı alınmaz bəladır və öldürücü zəhərlə doludur.
9 Biz dil ilə Allahı və Atanı təqdis edirik. Və dil ilə də Allahın surətində yaradılmış adamlara lə'nət
oxuyuruq.
10 Təqdis və lə'nət eyni ağızdan çıxır. Qardaşlarım, bu belə olmamalıdır.
11 Məgər bir bulağın eyni gözündən şirin və acı su çıxarmı?
12 Qardaşlarım, məgər əncir ağacı zeytun, üzüm meynəsi də əncir yetişdirə bilərmi? Beləcə heç
bir bulaq həm duzlu, həm şirin su hasil edə bilməz.

3 və 4-cü ayələrdə Yaqub dili nə ilə müqayisə edir?

A ______________________________ idarə edir

B ______________________________ idarə edir

Bu ilk iki illüstrasiya nəyi açır – ayə 5a?

______________________________

Bizim sözlərimiz başqalarına çox təsir edə bilər. Hansı şəraitlərdə onlar çoxlu yaxşılıq edə bilər?

______________________________

______________________________

Yaqub davam edir və 5b və 6-cı ayələrdə dili alovla müqayisə edir. Bu illüstrasiya qabaqkılarından necə fərqlənir?

______________________________




Yaqub dil “cəhənnəm tərəfindən alovlandırılır” deyəndə nəyi nəzərdə tuturdu?

________________________________________

9 və 10-cu ayələr deyir ki, biz öz ağzımızla iki zidd olan şeyi edirik. Bunlar hansılardır?

____________________ yəni

____________________ yəni

Bizim öz dilimizi ziddiyyətli istifadə etdiyimizi göstərmək üçün Yaqub 11-ci ayədə nəyi təsvir edir?

________________________________________

12-ci ayədə Yaqub təbiətin qanununa müraciət edir: meyvə onu gətirən ağaca uyğun olur. Bu sonuncu təsvir bizimlə necə əlaqəlidir?

________________________________________

“Çünki ağız ürəkdən gələni söyləyir” (Matta 12:34).

“Ya Rəbb, ağzıma nəzarətçi qoy, dodağımın qapısını qoru.” (Zəbur 141:3)

youth challenge CEF

# Münaqişələr

## Yaqub 3:17-4:2

**Məqsədlər**

Gənc imanlılar
- münaqişələri başlayan səbəbləri haqda düşünəcəklər
- münaqişələrin verdiyi zərərini başa düşəcəklər və sülh yaradanlar olmaq istəyəcəklər.
- hamıya qarşı xoş və mülayim münasibət bəsləməyə can atacaqlar.

Xilas olmamış uşaqlar başa düşəcəklər ki, hər şeydən əvvəl onlar Allahla barışmalıdır.

### Giriş: Əşyaları istifadə edərək müzakirə

[Qrupun ortasında müxtəlif əşyaları qoyun, məsələn:

| | | | |
|---|---|---|---|
| Elastiki lent | Kompass | Şam | Pozan |
| Kibritlər | Bint | Yapışan lent | Fıştırıq |
| Qol saatı | Maska | Cib dəsmalı | Xətkeş |
| Piyada (şahmat fig) | Dəftərxana düyməsi | Fırfıra | |

Bəzi cavan uşaqlardan xahiş edin ki, öz valideynləri ilə münasibətləri haqda düşünsünlər. Başqaları öz dostları ilə olan münasibətləri haqda düşünsünlər. Üçüncü qrup öz müəllimləri ilə olan münasibətləri haqda düşünsünlər. Hər biri bu münasibətləri xatırladan bir əşya seçsin, sonra da növbə ilə bu seçimin səbəbini utandırıcı detalları danışmadan başa salsın. Məsələn:"Mən şənbə günü axşam harasa getmək üçün valideynlərimdən icazə alanda bu kibriti yandırmaq kimidir: söhbətimiz çox qızır!" Bir-neçə gənc eyni əşyanı istifadə edə bilər.]

Bizim münasibətlərimiz tez dəyişə bilər. Savaşma baş verə və öz izini qoya bilər. Bu gün araşdıracağımız hissədə Yaqub münaqişələrin kökünü və onlardan boyun qaçırmaq yolunu izah edir. [İş vərəqlərini paylayın.]

### Müqəddəs Kitabdan oxumaq üçün mətn: Yaqub 4:1-2 və 3:17-18

[Biz məsləhət görürük ki, dərsi daha aydın etmək üçün əvvəlcə mətnin ikinci hissəsini birinci oxuyasız. ]

**4:1** Aranızda mübarizələr və ixtilaflar haradandır? Üzvlərinizdə döyüşən ehtiraslarınızdan deyilmi?

**4:2** Arzu edir, amma əldə etmirsiniz; adam öldürürsünüz. Və paxıllıq edir, amma muradınıza nail olmursunuz; ixtilaflara girir və döyüşürsünüz…

**3:17** Lakin yuxarıdan nazil olan hikmət əvvələn safdır, sonra da sülhpərvər, mülayim, itaətkar, mərhəmətli və xeyirli bəhrə ilə dolu, qərəzsiz və riyasızdır

**3:18** Salehliyin bəhrəsi də sülh yaradanlar üçün sülh içində əkilir.

## Səbəblər

### 1- Yaqub burda nə cür münaqişələrdən danışır?

Yerli məbədlərin imanlıları arasında rəqabət [iş vərəqi]. Bizim məlumatımız məhduddur, amma Yaqubun istifadə etdiyi ifadələr bizə bəzi şeyləri aşkar edir. Bəzilər cəmiyyətdə ağalıq edən vəzifələri istəyirdi, başqaların içtimai vəziyyətinə paxıllıq edirdi yaxud öz nöqtəyi-nəzərini aldatmağa çalışırdı. Məbəd uğursuz qüvvə mübarizələrinin teatrı

idi. (Pavel həmin şeyi deyir. Mübahisələr hərdən doktrina sahələrində və məsihçi təcrübələrində olur – 2 Korinflilərə 12:20; Titusa 3:9.)

1-ci ayədə olan "mübarizə" və "ixtilaf" sözləri bunu nəzərdə tutmurdu ki, məsihçilər fiziki savaşırdı. Onların mübahisələri ola bilsin çox vaxt dildə idi. Amma keçən dərsdə gördüyümüz kimi, dil qəddarlığı çox zərər verə bilər.

### 2- Yaqub istəyir ki, biz bu münaqişələrin mənbəyinə nəzər salaq. 1-ci ayənin qalan hissəsi nə deyir?

Onlar bizim qəlblərimizdə oturan ehtiraslarımızdan gəlir [iş vərəqi]. Müəyyən məsihçilərin münasibəti onların şəxsi arzularına, hakimiyyət arzusuna görə nifrətlə dolu idi. Onlar yalnız öz şəxsi maraqlarını düşünürdü, məbədin maraqlarını yox. [Yaqub yunan "ehtiras" sözünü istifadə edir, bu bitərəfdir, amma bu parçanın kontekstində bu pis arzular, həzzlərdir. Bu yadımıza sınağın mənbəyi mövzusunda Yaqub 1:14 salır.]



### Üsul: Vəziyyətin araşdırılması

Bu günlərdə olan münaqişələr də bizi idarə edən ehtiras və arzulardan gəlir. Hansı pis arzular aşağıda göstərilmiş vəziyyətlərdə münaqişənin səbəbi olub?

- Oyunu uduzandan sonra iki futbol oyunçusu paltar dəyişən yerdə dalaşır.
- Cavan oğlan valideynlər onu şənbə günü diskotekaya getməyə icazə vermədikləri üçün onlarla mübahisə edir.
- Səhvlər düzəldilmiş ev tapşırığını alandan sonra tələbə sinifdən çıxır və qapını çırpır.
- Velosiped sürən cavan oğlan onun yanında öz uşaq velosipedində keçən qonşunu ucadan təhqir edir.

[Cavablar bu vəziyyətlərin izahından asılıdır: arzu, qürur, qısqanclıq, tamahkarlıq.] Qəzəbdə partlamaq əvəzinə biz bunun dalında duran səbəbi haqda düşünməliyik.

### 3- Bizim arzularımız razı salınıbmı?

Biz istədiyimizi əldə edə bilmirik [iş vərəqi]. Biz o qədər şeyi əldə etmək istəyərdik! Bu qaçılmazdır ki, hərdən bizim gözlədiyimiz kimi olmur. Biz tez-tez pərişan oluruq, özümüzü əlimizdə olanla qane edə bilmirik yaxud öz içtimai vəziyyətimizlə razı ola bilmirik.

## Nəticələr

### 4- Yaqub nəticələr haqqında danışmaqla davam edir. 2-ci ayəyə görə bizim alt-üst edilmiş arzularımız nəyə aparır?

Qatillik, savaşmalar, müharibə [iş vərəqi]. Paxıllıq böyüyür və düşmən hərəkətlərini doğurur - həddindən artıq hava ilə dolmuş şar axırda əlbəttə partlayacaq.

### 5- Məsihçilər doğrudan da "qatil idi"?

Bu sözü hərfi mənada başa düşmək lazım deyil. Yaqub xüsusilə mənəvi cınayətlərdən düşünür [iş vərəqi]. Əslində bizim münasibətərimiz və sözlərimiz fiziki zorakılığın köməyi olmadan dərindən yaralaya və insanı "məhv edə" bilər. (Matta 5:21-26-da İsa qəzəbin ciddiliyini qeyd edir. O insanlara əmr edir ki, yubanmadan gedib öz qardaşları ilə barışsınlar.)

### 6- Müqəddəs Kitabın hansı hekayəsində qısqanclıq əsl qatilliyə gətirib çıxartdı?

Yaradılış 4:1-16-da Qabil və Habilin hekayəsi [iş vərəqi]. Qabil qəbul edə bilmədi ki, Allah onun qardaşının təqdimini daha çox bəyəndi. O Allahın xəbərdarlığına baxmayaraq öz qəzəbini saxlamağa çalışmadı. O öz qardaşını tarlada öldürdü. Bu hadisə nəsillər boyu təkrar olundu.



### İllüstrasiya: Statistika

Söz savaşması və fiziki savaşma arasında bir addım var. Saysız-hesabsız gənclər məktəbdə bu xətti keçib. Fransız nazirlik hesabatına görə 2002-2003-cü illərdə 72,057 qəddar hərəkət qeydə alınıb. Bu hadisələrin 70 faizi 12-15 yaşlılar üçün kollecdə baş verib. Qeydə alınmış hadisələr:

- 21,003 fizili zorakılıq
- 7,844 oğurluq yaxud oğurlamaq cəhdləri
- 1,952 daşları və başqa şeylərin atılması

• 1,757 qanqsterlik yaxud banditlik etməyə cəhd

Sən öz məktəbində belə hadisələrə rast gəlirsən? Buna necə yanaşırsan? Zorakılığı yüyənləmək üçün biz nə edə bilərik?

# Düzgün davranış

## 7- Əgər biz sülh yaradanlar olmaq istəyiriksə, ilk növbədə kiminlə barışmalıyıq?

Allahla [iş vərəqi]. Pislik etməklə insan özünü Allaha düşmən edir (Koloslulara 1:21). Özünə təslim olaraq o öz ehtiraslarının qulu olur (Titusa 3:3) və başqaları ilə sülhdə yaşamağı bacarmır. Amma bizə olan sevgisinə görə Allah bizi Özü ilə Öz Oğlunun çarmıxda olan qurbanı vasitəsilə barışdırdı (Koloslulara 1:22). İsa bizim və Allah arasında duran günah maneəsini aradan qaldırdı. Günahkar insan sadəcə olaraq Allahın ona təqdim etdiyi barışığı imanla qəbul etməlidir. O ona uzadılmış əli tutmalıdır. Sən Allahla barışmısan? Onunla sülhün varmı?

## 8- Yaqubun 3:17-də danışdığı “yuxarıdan nazil olan hikmət” nədir?

“Hikmət” sözü tez-tez düzgün bilik yaxud sözlər haqqında danışanda istifadə olunur. Amma Yaqub üçün bu düzgün davranışa aiddir. “Yuxarıdan nazil olan hikmət” Allahdan ilham alan həyat tərzidir [iş vərəqi]. Bu ayədə Yaqub, insanın Allaha uyğun olan davranışını təsvir edir.



## Üsul

[Gəncləri iki-üç nəfərdən ibarət olan qruplara bölün və onlardan xahiş edin ki, siyahıda solda yerləşən hikmət xüsusiyyətlərini sağda yerləşən münasibətlərə uyğun olaraq bir yerdə qoysun. ]




[Diaqramı düzəldəndən sonra gənclərdən xahiş edin ki, bu siyahını özləri üçün yenidən oxusunlar və sol sütununda olanlar arasından öz həyatında xüsusilə inkişaf etdirməli iki sahənin altından xətt çəksinlər.] Bu keyfiyyətlər İsa Məsihdə çox gözəl birləşir.
O yaxşı Çobandır, mülayim və həlimdir (2 korinflilərə 10:1). O Özü tamamilə pakdır. O “həqiqətdir”. O sülh gətirir və Öz şagirdlərinə onu yaymağa tapşırıb (Matta 5:9).

[Diaqramı düzəldəndən sonra gənclərdən xahiş edin ki, bu siyahını özləri üçün yenidən oxusunlar və sol sütununda olanlar arasından öz həyatında xüsusilə inkişaf etdirməli iki sahənin altından xətt çəksinlər.] Bu keyfiyyətlər İsa Məsihdə çox gözəl birləşir.
O yaxşı Çobandır, mülayim və həlimdir (2 korinflilərə 10:1). O Özü tamamilə pakdır. O "həqiqətdir". O sülh gətirir və Öz şagirdlərinə onu yaymağa tapşırıb (Matta 5:9).

## 9- Hərdən məsihçilərdə üzləşmə olmalıdır? Hansı vəziyyətlərdə?

Təsəvvür et ki, sən küçədə bir uşağı qorxudan üç gənci görürsən. Onlar onun velosipedini tullayır, onun çantasında olan əşyalarını yerə atır və onu təpiklə vurmağa başlayır. Sən qarışmalı deyilsənmi?

Təsəvvür elə ki, nahar zamanı sənin dostların ruhani şeylər haqqında danışmağa başlayır və onlardan biri nifrətə layiq sözlərlə Allahı təhqir edir. Sən onu dayandırmağa çalışmalı deyilsənmi?

Hərdən biz Allahın və yaxşılığın tərəfində durmalıyıq [iş vərəqi]. Sən bu davalarda iştirak etməlisən. Amma ehtiyatlı ol ki, bu xüsusi vəziyyətlərdə sən məsihçi imanının prinsiplərini yaddan çıxartmayasan. Dalaşqan ruhuna heç nə haqq qazandırmır!

### 16 yaşı +

Araşdırmaq üçün maraqlı mətnlər:

Matta 21:12-13 və 22:15-21: Rəbb İsa ticarətçiləri məbəddən qovdu və onların masalarını çevirdi, çünki onlar Allahın evini quldur yuvasına çevirmişdi. Başqa şəraitlərdə, fəriseylər həqiqəti çevirəndə İsa onlara sərt müqavimət göstərdi.

Həvarilərin İşləri 4:15-20: Rəhbərlər Həvarilərə Müjdəni yaymağa qadağan edəndə onların arasında münaqişə oldu.

## 10- Axırda, Yaqub 18-ci ayədə biz sülhü yaratmağa çağıranda bunu nəyə bənzədir?

Bəhrə haqqında düşünərək əkmək [iş vərəqi]. Sülh üçün çalışmaq asan iş deyil. Amma sənin əkdiklərin düzgün bəhrə verəcək və Allahı razı salan münasibətlərə şərait yaradacaq. [18-ci ayə tərcümə problemini yaradır. Salehliyin bəhrəsi ya sülhpərvərlər tərəfindən ya da sülhpərvərlər üçün əkilir.]



## Üsul: Rolların ifası

Vaxt imkan verirsə, siz münaqişə vəziyyətlərini göstərə bilərsiz:

Ata öz yeniyetmə oğlunun cibində siqaret paçkasını tapıb sarsılıb. Yeniyetmə ona siqaretlər onun dostuna məxsusdur deyəndə ata qəzəbləndi. Ana qarışır.

Dərsdən sonra Davud Muraddan xahiş edir ki, o öz telefonunu ona versin. Murad razı olmur, çünki Davud həmin gün artıq üç dəfə ondan telefonu götürmüşdü. Mübahisə başlanır. Üçüncü yeniyetmə, Ceyhun onları sakitləşdirməyə çalışır.

[Məqsəd münaqişəni necə həll etməyini düşünməkdir. Bu səhnəni oynayandan sonra vaxt ayırıb gənclərlə nə baş verdiyini müzakirə edin: öz dostlarını sakitləşdirmək üçün Ceyhun nə dedi? Onun hansı çətinliyi oldu? Sülh yaratmaq üçün o başqa hansı vasitələrdən istifadə edə bilərdi? O öz fikrini deməli, tərəfləri tutmalı idi? Müzakirədən sonra başqa adamlar qoy səhnəni oynasın.]



## Yekun

Ola bilsin siz gördüz ki, sizin bəzi münasibətləriniz - valideynlərlə, müəllimlərlə, dostlarla və başqaları ilə - sağlam deyil. İndidən başlayaraq sülh əkmək istəyirsən?

"Gənclik ehtiraslarından isə qaç və səmimi qəlbdən Rəbbi çağıranların hamısı ilə birlikdə salehlik, iman, məhəbbət və sülh yolunu izlə." 2 Timotey 2:22.

# Münaqişələr

## Yaqub 3:17-4:2

**4:1** Aranızda mübarizələr və ixtilaflar haradandır? Üzvlərinizdə döyüşən ehtiraslarınızdan deyilmi?

**4:2** Arzu edir, amma əldə etmirsiniz; adam öldürürsünüz. Və paxıllıq edir, amma muradınıza nail olmursunuz; ixtilaflara girir və döyüşürsünüz...

**3:17** Lakin yuxarıdan nazil olan hikmət əvvələn safdır, sonra da sülhpərvər, mülayim, itaətkar, mərhəmətli və xeyirli bəhrə ilə dolu, qərəzsiz və riyasızdır

**3:18** Salehliyin bəhrəsi də sülh yaradanlar üçün sülh içində əkilir.



## Səbəblər

Yaqub burda nə cür münaqişələrdən danışır?

Yaqub istəyir ki, biz bu münaqişələrin mənbəyinə nəzər salaq. 1-ci ayənin qalan hissəsi nə deyir?

Oyunu uduzandan sonra iki futbol oyunçusu paltar dəyişən yerdə dalaşır.

Cavan oğlan valideynlər onu şənbə günü diskotekaya getməyə icazə vermədikləri üçün onlarla mübahisə edir.

Səhvlər düzəldilmiş ev tapşırığını alandan sonra tələbə sinifdən çıxır və qapını çırpır.

Velosiped sürən cavan oğlan onun yanında öz uşaq velosipedində keçən qonşunu ucadan təhqir edir.

Bu ayənin ikinci hissəsi bizim içimizdə olan ehtiraslar və arzular haqda nəyi açıqlayır?

## Nəticələr

Yaqub nəticələr haqqında danışmaqla davam edir. 2-ci ayəyə görə bizim alt-üst edilmiş arzularımız nəyə aparır?

Məsihçilər doğrudan da “qatil idi”?

Müqəddəs Kitabın hansı hekayəsində qısqanclıq əsl qatilliyə gətirib çıxartdı?

# Düzgün davranış

Əgər biz sülh yaradanlar olmaq istəyiriksə, ilk növbədə kiminlə barışmalıyıq?

Yaqubun 3:17-də danışdığı "yuxarıdan nazil olan hikmət" nədir?

| | |
|---|---|
| Safdır | Özündən çıxmaq əvəzinə lazımi dərəcədə reaksiya vermək |
| Sülhpərvərdir | Həmişə maqavimət göstərmək əvəzinə məndən xahiş olunan şeyi qəbul etmək |
| Mülayim | Ətrafımda olanların hamısı ilə sülhdə olmağa çalışmaq |
| İtaətlidir | Həqiqəti məhəbbətlə demək qaydasını bilərək səmimi olmaq |
| Mərhəmətlidir | Düzgün davranmağa çalışmaq |
| Xeyirli bəhrə ilə doludur | Ehtiyacı olanlara yaxşılıq etmək və xeyirxah olmaq |
| Qərəzsizdir | Ayrı-seçkilik etməyərək hər birini sevmək |
| Səmimidir | Başqaları üçün çoxlu xeyirxah işlər görmək |



Hərdən məsihçilərdə üzləşmə olmalıdır? Hansı vəziyyətlərdə?

Axırda, Yaqub 18-ci ayədə biz sülhü yaratmağa çağıranda bunu nəyə bənzədir?

"Gənclik ehtiraslarından isə qaç və səmimi qəlbdən Rəbbi çağıranların hamısı ilə birlikdə salehlik, iman, məhəbbət və sülh yolunu izlə." 2 Timotey 2:22.

youth challenge CEF™

# Gələcək planları

## Yaqub 4:13-16



Məqsədlər

Gənc imanlılar

- görəcəklər ki, onların gələcəyi ən uca Allahın əlindədir.
- hərdən özünə güvənən planlar qurduğuna görə peşiman olacaqlar.
- öz planlarını duada Allaha verəcəklər.

Xilas olmayanlar həyatın qısalığı haqqında düşünəcək və əbədi həyatı qəbul etmək üçün Allaha iman etməyə ruhlanacaqlar.



### Giriş: Şəkil dili

[Bu məşğələdən qabaq jurnallardan təxminən 50 müxtəlif şəkili kəsin və masaya qoyun. Siz gənclərə bu sualı verəcəksiz: "Sənin planların nədir?" Bu qısa, orta yaxud uzunmüddətli planlar ola bilər. Öz cavabı üçün onlar öz seçiminə görə bir yaxud iki şəkil istifadə edə bilər. Bir-neçə adam eyni şəkili istifadə edə bilər.]

Biz bu planları həyata keçirə bilərik? Biz buna əmin deyilik. Bu gün araşdıracağımız hissədə Yaqub bizim yadımıza salır ki, bizim gələcəyimiz Allahdan asılıdır və biz bilmirik sabah nə olacaq. [İş vərəqlərini paylayın.]

### Müqəddəs Kitabdan oxumaq üçün mətn: Yaqub 4:13-16

**13** Indi bax, siz deyirsiniz ki, "Bu gün, ya sabah biz filan şəhərə gedib orada bir il qalacağıq və ticarət edib qazanc əldə edəcəyik."

**14** Halbuki, sabah nə baş verəcəyini bilmirsiniz. Həyatınız nədir? O müvəqqəti olaraq görünüb, sonra da qeyb olan buxardır.

**15** Bunun əvəzinə: "Əgər Rəbb istəyərsə, yaşayıb, bu və ya digər işi görərik", - deməlisiniz.

**16** Indi isə siz öz təkəbbürlüyünüzlə öyünürsünüz. Bütün bu cür öyünmə pisdir.

## Bizim planlarımız hərdən özünə çox güvənir

### 13-cü ayədə Yaqub hansı peşəkar kateqoriyasına müraciət edir?

Yeni xeyirlər əldə etməyə planlaşdıran varlı iş adamı [iş vərəqi]. Yaqubun dövründə alış-veriş artıq geniş yayılmışdı. Saysız-hesabsız yəhudi Aralıq dəniz buxtasının şəhərlərinə ticarət üçün gedirdi. ["Qardaşlarım" sözünün yox olması göstərir ki, Yaqub yalnız imanlılar yox, amma ümumiyyətlə iş adamları haqqında danışır.]

Bu ayəni oxuyanda biz müasir həyatdan tanış mənzərələri görə bilərik: öz ticarətini inkişaf etdirmək, bazarda daha iri tikə götürmək və gəlir əldə etmək üçün öz idarələrini daha böyük şəhərlərə köçürür.

### 2- Gəlin 16-cı ayənin ətrafına baxaq. Bu insanlarda və onların planlarında nə problem var ki?

Onlar lovğalıdır [iş vərəqi]. Özünə əmin olaraq, onlar hara gedəcəyini, nə vaxt gedəcəyini və nə müddətə gedəcəyini qərara alırlar, elə bil onlar şəraitlərə bütövlüklə özləri nəzarət edirlər. Beləliklə, Yaqub onları planlar qurduğuna görə tənqid etmir, amma o, bu iş adamlarını bunu təkəbbürlə etdiyini ifşa edir. Onlar inanırlar ki, vaxtı idarə edirlər. "Biz bu yeni şəhərdə bir il ərzində öz ticarətimizi yaradacayıq və cibimizin tərkibini hamarlayacayıq. Uğura zəmanət verilir!" Yaqub lovğalıq əsasını düzəltmək istəyir. Bizdə

## Bizim planlarımız qeyri-müəyyəndir

də özünə çox əmin olmaq meyli yoxdurmu?

### 3- 14-cü ayədə Yaqub ilk sualını verir. O öz oxucusunun yadına nəyi salmaq istəyir?

Sabah nə baş verəcəyini bilmirik [iş vərəqi].

Bir il qabaq planlar quran bu iş adamları əslində sabah başlarına nə gələcəyini bilmir. Vaxtı idarə etmək yalnız xəyaldır.

### 4- Həyatımızda hansı şeylər peyda olub bizim planlarımızı təhlükəyə sala bilər?

Xəstəlik, bədbəxt hadisə, terroristlərin hücumu, maddi dəyişikliklər, yeni məhəbbət əhvalatı, Rəbbin qayıdışı...[iş vərəqi]. Rəbbin qayıdışı hər an baş verə bilər; bu bizim növbəti məşğələmizin mövzusudur. Biz bilirik ki, gözlənilməyən şəraitlər həyatımızın gedişatını dəyişə bilər. Müasir texnologiya bizi qeyri-müəyyənlikdən qaçmağa qoymur. Biz bilmirik, yerdəki həyatımızın sonu nə vaxt olacaq.

### 5- Niyə görə 14-cü ayənin ikinci hissəsində Yaqub həyatı buxar ilə müqayisə edir?

Çünki bizim həyatlarımız kövrək və qısadır [iş vərəqi]. Gölü örtən yaxud sahildə yerləşən kəndi mühasirəyə alan səhər dumanı haqda düşün. Günəş çıxanda o bir-neçə saniyədə dumanı qovur və duman yox olur. [Qeyd: burada istifadə olunan yunan sözü "tüstü" kimi də tərcümə oluna bilər. Bizim yaşayışımız küləyin tez qovduğu tüstü kimidir.] Biz həyatımızın qısa və etibarsız olduğunu unutmamalıyıq.

**16 yaşı +**

Bibliyada olan hikmət kitabları tez-tez həyatın tez keçdiyini deyir. Bu parçaları siz yaşda daha böyük olan uşaqlarla araşdıra bilərsiz: Əyyub 7:7 həyatı nəfəslə müqayisə edir; Zəbur 90:3-6-da səhər çiçəklənən və axşam quruyan otla; Zəbur 102:3-də yoxa çıxan tüstü ilə; Zəbur 144:4-də nəfəslə və keçib gedən kölgə ilə. Həmçinin Zəbur 39:5-8 və Süleymanın Məsəlləri 27:1 baxın.



### İllüstrasiya: 100 ilə qədər yaşamaq!

M. C. Rodeyl Amerika jurnalının baş redaktoru və orqanik qidanın müdafiəçisi idi. 72 yaşı olanda o əminliklə bəyan etdi ki, 100 ilə qədər yaşayacaq. Onun bu sözləri təzəcə Nyu York Tayms qəzetində və televiziyada xəbər verilən kimi o ürək tutmasından öldü.

### 6- Buna görə biz sabahkı gün üçün qorxuda yaşamalıyıq?

Allahdan uzaq olan adamlar bizim həyatımızın fani olduğunu başa düşərək narahat ola bilər. Yəhya 3:36-da deyilir: "Oğula iman edənin əbədi həyatı vardır [iş vərəqi], lakin Oğula itaət etməyən, həyat görməyəcəkdir, Allahın qəzəbi onun üzərində qalacaqdır..."

Bizim günahlarımıza görə çarmıxda ölüb yenidən dirilən İsa Məsihə etibar etmək çox mühümdür. Onda biz öz yerdəki həyatımıza görə arxayın olmasaq da, hara gedəcəyimizə əminik. Biz Allahla bir yerdə əbədi yaşamaqdan zövq alacayıq. Səndə bu əminlik varmı?

Bəzi gənclər imana dönməyə yol getmək kimi baxırlar. "Mən sonra baxaram, mənim vaxtım çoxdur!" Amma sabah gec ola bilər. Buna görə yubanma!

## Bizim planlarımız Allaha tabe olmalıdır

### 7- 15-ci ayəyə görə planlar quranda biz nə etməliyik?

"Əgər Rəbb istəyərsə" deyin [iş vərəqi].

Bu ifadə uğurla təmin etmək məqsədilə təkrar edilmək üçün sehrli düstur deyil!

### 8- Bu sözlər hansı münasibəti əks etməlidir?

Biz təvazökarlıqla boynumuza almalıyıq ki, bizim planlarımız Allahdan asılıdır [iş vərəqi]. Bizdən fərqli olaraq, Allah sabah nə olacağını bilir. Öz əzəmətində O hadisələrin gedişatını idarə edir. O vaxt və tarixin sahibidir. Özümüzü öz planlarımıza salmaq əvəzinə biz həlimliklə Onun bizim həyatlarımızın üzərində olan ali hakimiyyətini qəbul etməliyik. Bizim planlarımızın uğuru və uğursuzluğu Ondan asılıdır. Gəlin əminliklə öz proyektlərimizi Ona verək.



## İllüstrasiya: “DV”

Ola bilsin siz reklamlarda “DV” hərflərini yaxud məsihçilərin yazdığı məktublara fikir vermisiz? Bu latın “domino volente”-dən tərcümədə “Allah qoysa” deməkdir. Bu iki hərf tez-tez gələcək planlara aid istifadə olunur. Tarixdən sonra tez-tez “DV” yazılır. Bu adət insanlara bütün planların Allahın iradəsindən asılı olduğunu xatırlatmalıdır.



## Üsul: Doldurmaq üçün cədvəl

Allah bizim gələcək planlarımıza qarşı deyil, amma O deyir ki, biz onları Onun iradəsinə tabe edək. Gəlin indi Həvari Pavelin çoxlu proyektləri hazırlayıb onlara görə son sözünü Allaha necə verdiyinə baxaq. [Qoy dörd könüllü bu ayələri Bibliyada tapıb oxusun. Gənclər öz iş vərəqlərində olan cədvəli doldurmalı olacaq.]

| Həvari Pavel : | Onun proyektləri | Onun tabeçiliyi |
|---|---|---|
| Həv. İşl. 18:21 | Qayıdıb efeslilərə baş çəkmək | Əgər Allah istərsə |
| Romalılara 1:10 | Romalılara baş çəkmək imkanı var | Allahın iradəsi ilə |
| 1 Korinflilərə 16:7 | Bir müddər korinflilərlə qalmaq | Əgər Rəbb icazə verərsə |
| Filipililərə 2:19 | Timoteyi filipililərin yanına göndərmək | Rəbb İsaya güvənərək |

Yalnız “əgər Rəbb istəyərsə” demək vacib deyil, amma Allahın iradəsindən asılı olmağını axtarmaq vacibdir. Əgər planlarımız uğurlu olsa, biz buna görə Ona izzət verəcəyik. Əgər planlar baş tutmasa, həlimliklə onların Allahın planının hissəsi olmadığını qəbul edəcəyik.

### 9- 16-cı ayəyə görə niyə bizdə Allahı planlarımızdan kənarda saxlamaq meyli var?

Bizim lovğalıq və qürurumuza görə [iş vərəqi]. Bizi təkəbbürlü planları qurmağa vadar edən bizim qürurumuzdur. Biz iddia edirik ki, öz həyatlarımızı özümüz idarə edə bilərik. Biz özümüzün tam olduğuna inanırıq və yalnız “horizontal” düşünürük. Qürur bizi Allahın ali hakimiyyətini saymamağa vadar edir. Biz Onu planlarımızdan kənarda saxlayırıq. Bu axmaqlıqdır, çünki hər şeyin üzərində hökmranlıq edən Odur!



## Üsul: Saxta məktub

[Gəncləri dörd-beş nəfərdən ibarət qruplara bölün və hər qrupa kağızlar, qələm və aşağıdakı təlimatları verin:]

tutaq ki, sən dostundan məktub almısan:

“Əziz… Mən öz dərslərimdə hansı istiqamətlə gedəcəyimi qərara almalıyam! Mən həmişə idman müəllimi olmaq istəmişəm, amma mən kompyuterləri də sevirəm. Anam məni mühəndis görmək istəyir, amma bu il mənim riyaziyyat qiymətlərimlə bu haqda düşünə bilmərəm! Nə edəcəyimi bilmirəm və səhv etməkdən qorxuram. Mən bu qərarı necə qəbul edim? Mənə kömək edə bilərsənmi? Mənim üçün dua edərsən?”

Bibliyada verilmiş bu məsləhətə əməl edərək bir yerdə cavab hazırlayın: Yaqub 4:15 (özünü Allahın iradəsinə tabe et); Sül.Məsəlləri 3:5-6 (Onun idarəsinə güvən); Sül.Məsəlləri 15:22 (başqalarından yaxşı məsləhət axtar).



## Yekun

Hamımızın planları və arzuları var. Biz ehtiyatlı olmalıyıq ki, Yaqubun müraciət etdiyi iş adamları kimi özündən razı olmayaq. Yadında saxlayın ki, bizim yaşamağımız və fəaliyyətimiz əbədi deyil. Biz bilmirik sabah nə olacaq. Amma duada biz öz proyektlərimizi uca Allahımızın əlinə qoyub Ondan bizi Öz kamil planlarına görə idarə etməyə xahiş edə bilərik.

Bu axşam sən vaxt ayırıb öz proyekt və arzularını Rəbbə vermək istəyirsənmi?

“Ya Rəbb, yollarını mənə göstər, Ardınca getməyi mənə öyrət... Ya Rəbb, yalnız sənə güvənirəm… Mənim hər anım sənin əlindədir.” (Zəbur 25:4; 31:14-15).

# Gələcək planları

## Yaqub 4:13-16

**13** Indi bax, siz deyirsiniz ki, Bu gün, ya sabah biz filan şəhərə gedib orada bir il qalacağıq və ticarət edib qazanc əldə edəcəyik.

**14** Halbuki, sabah nə baş verəcəyini bilmirsiniz. Həyatınız nədir? O müvəqqəti olaraq görünüb, sonra da qeyb olan buxardır.

**15** Bunun əvəzinə: Əgər Rəbb istəyərsə, yaşayıb, bu və ya digər işi görərik, - deməlisiniz.

**16** Indi isə siz öz təkəbbürlüyünüzlə öyünürsünüz. Bütün bu cür öyünmə pisdir.



## Bizim planlarımız hərdən özünə çox güvənir



13-cü ayədə Yaqub hansı peşəkar kateqoriyasına müraciət edir?

______________________________

______________________________

Gəlin 16-cı ayənin ətrafına baxaq. Bu insanlarda və onların planlarında nə problem var ki?

______________________________

## Bizim planlarımız çox dəyişkəndir

14-cü ayədə Yaqub ilk sualını verir. O öz oxucusunun yadına nəyi salmaq istəyir?

______________________________

Həyatımızda hansı şeylər peyda olub bizim planlarımızı təhlükəyə sala bilər?

______________________________

______________________________

Niyə görə 14-cü ayənin ikinci hissəsində Yaqub həyatı buxar ilə müqayisə edir?

______________________________

Yəhya 3:36: "Oğula iman edənin ______________________________;
lakin Oğula itaət etməyən, həyat görməyəcəkdir, Allahın qəzəbi onun üzərində qalacaqdır.."



# Bizim planlarımız Allaha tabe olmalıdır

15-ci ayəyə görə planlar quranda biz nə etməliyik?

Bu sözlər hansı münasibəti əks etməlidir?

| Həvari Pavel | Onun proyektləri | Onun tabeçiliyi |
|---|---|---|
| Həv. İşləri 18:21 | | |
| Romalılara 1:10 | | |
| 1 Korinflilərə 16:7 | | |
| Filipililərə 2:19 | | |

Yalnız "əgər Rəbb istəyərsə" demək vacib deyil, amma Allahın iradəsindən asılı olmağını axtarmaq vacibdir.

16-cı ayəyə görə niyə bizdə Allahı planlarımızdan kənarda saxlamaq meyli var?

"Ya Rəbb, yollarını mənə göstər, Ardınca getməyi mənə öyrət...
Ya Rəbb, yalnız sənə güvənirəm...
Mənim hər anım sənin əlindədir." (Zəbur 25:4; 31:14-15).

youth challenge CEF

# Məsihin qayıdışı

## Yaqub 5:1-8



**Məqsədlər**

Gənc imanlılar

- başa düşəcəklər ki, Rəbb haqsızları mühakimə və sadiqləri şərəfləndirmək üçün qayıdacaq.
- başa düşəcəklər ki, Məsih hər zaman qayıda bilər və hazır olmaq istəyəcəklər.
- ətrafda olanlara Müjdəni yaymaqla Rəbbin gəlişinə hazırlaşacaqlar.

Xilas olmayanlar Məsihə iman etmək üçün ruhlanacaqlar ki, O onları da özü ilə götürsün və izzətləndirsin.



### Giriş: Tufan

Sən nə vaxtsa pəncərədən baxıb tufanın yaxınlaşdığını görmüsən? Külək əsməyə başlayıb və küçə səkilərdə olan yarpaqları qaldırır. Böyük qara buludlar bir yerə yığılıb və göy qaralıb. Hərdən sən aşağıda uçan qaranquşları görə bilərsən. Küçələrdə olan insanlar sığınacaq tapmaq üçün ora-bura qaçır. Hamı öz qapı-pəncərələrini onları külək çırpmazdan qabaq bağlayır. Sən bu xəbərdarlıq edən əlamətləri səhv sala bilməzsən: tufan başlamaq üzrədir!

Bu gün araşdıracağımız parçada Yaqub Məsihin qayıdışı haqqında danışır. Bütün xəbərdarlıq əlamətləri göstərir ki, bu çox yaxındır, amma biz bunun nə vaxt baş verəcəyini bilmirik. Bu möhtəşəm gün bəziləri üçün dəhşət və başqaları üçün sevinc günü olacaq. Gəlin əmin olaq ki, biz bu günə hazırıq. [İş vərəqlərini paylayın].

### Müqəddəs Kitabdan oxumaq üçün mətn: Yaqub 5:1-4,7-8

1 Gəlin indi, ey varlılar, başınıza gələcək fəlakətlərdən ötrü ağlayın və fəryad edin!

2 Var-dövlətiniz çürüyüb, paltarlarınızı da güvə yeyib.

3 Qızıl və gümüşünüz paslanıb və onların pası sizə qarşı şəhadət olacaq və ətinizi
od kimi yeyəcək. Siz son günləriniz üçün sərvət toplayıbsınız!

4 Budur, tarlalarınızı biçən işçilərdən hiylə ilə gizlətdiyiniz əmək haqqı fəğan edir.
Biçinçilərin fəryadı Səmavi Qüvvələrin Rəbbinin qulaqlarına çatdı!

7 Beləliklə, ey qardaşlar, Rəbbin gəlişinə kimi səbirli durun. Budur, əkinçi ilk və
son yağıntını alıncayadək, torpaqdan qiymətli məhsulu səbirlə gözləyir.

8 Siz də səbirli olun, ürəklərinizi möhkəmlədin, çünki Rəbbin gəlişi yaxındır.

## Haqsızın mühakimə edilməsi

### 1- 4-cü fəsildə Yaqub varlı tacirlərə danışdı. Bəs indi o kimə danışır?

Varlı torpaq sahiblərinə [iş vərəqi]. Bu parça torpağın sahibi olan və işçiləri işə götürən çox varlı adamlardan danışır. Bu sahiblər xəsis və zülm edəndir. [Qabaqkı fəsildə olduğu kimi, Yaqub xüsusilə məsihçi torpaq sahiblərindən danışmır; o ümumi danışır.]

### 2- Bu varlılar niyə görə ağlayıb fəryad etməlidir – ayə 1?

Onların başına gələcək fəlakətlərdən ötrü [iş vərəqi]. Rəbb İsa qayıdanda onlar ciddi məhkum ediləcək.

16 yaşı +

1-ci ayədə olan cümlənin ifadə edilməsi bizim yadımıza Əhdi-Ətiqdə olan mətni salır. Peyğəmbərlər ədalətsizləri göz yaşı axıtmağa çağırdı, çünki Allahın qəzəbi onların üzərinə gəlirdi - Yeşaya 13:6.

## 3- 2-ci və 3-cü ayələrdə Yaqub var-dövlət haqqında danışmaq üçün məcazi dilini istifadə edir. Bunu izah edə bilərsən? Aşağıdakı cümlələrini tamamla.

- Onların var-dövləti çürüyüb, güvə yeyib, paslanıb. Bu o deməkdir ki, ... əbədiyyat baxımından onun heç bir dəyəri yoxdur.
- Onların var-dövləti onlara qarşı şəhadət olacaq və onların ətini od kimi yeyəcək. Bu o deməkdir ki, ... onlar öz sərvətini pis yolla istifadə etdikləri üçün mühakimə olunacaq.

## 4- Yaqub varlı mülkədarların mühakimə olunmasının iki əsas səbəbini deyir. 3-cü ayəyə görə birinci səbəb nədir?

Onlar öz var-dövlətini özləri üçün yığıb [iş vərəqi]. Bu insanlar başqaları haqda düşünməyərək öz mal-dövlətini toplayıb. Onlar ətrafda olan insanların ehtiyaclarına əhəmiyyət vermədi. mühakimə belə yaxın olanda bu nə cür axmaqlıqdır!

## 5- Onları mühakimə etmək üçün və onların vəziyyətini daha pislədən ikinci səbəb nədir – ayə 4?

Onlar öz işçilərinə əmək haqqını vermirlər [iş vərəqi]. Onlar yalnız başqalarının ehtiyaclarına əhəmiyyət vermirlər; onlar hətta iqtisadi tərəfdən onlardan asılı olanlarin həyatlarını təhlükə altına salırlar və onları istifadə edirlər. Yaqubun ittihamı Allahın İsrailə ictimai həyatı üçün verdiyi təlimatlara əsaslanır (Qanunun Təkrarı 24:14-15, Levililər 19:13, Yeremya 22:13). Bir işçi yeri şumlamaq yaxud biçmək üçün işə götürüləndə, ona həmin gün, gün batmazdan qabaq ədalətlə əmək haqqı verilməlidir. Onlardan ən kasıb olanlara bu pul lazım idi ki, öz ailələri üçün yemək alsın. Əmək haqqı saxlanılanda yaxud endiriləndə bu işçinin yaxud onun ailəsinin həyatı üçün təhlükə yarada bilərdi.

## 6- 4-cü ayənin sonunda, biçinçilərin fəryadı Rəbbin qulaqlarına çatdı deməklə Yaqub nəyi nəzərdə tuturdu?

Allah torpaq sahiblərinin pis işlərindən xəbərdardır və ədaləti gətirəcək [iş vərəqi]. Varlıların əməlləri Rəbdən gizlənilməyib. Allah hər şeyi bilən, müqəddəs və qüdrətlidir. Allah pisliyi cəzasız qoymayacaq.

16 yaşı +

Allaha çatan fəryadlar Müqəddəs Kitabın başqa yerlərində də göstərilir: Yaradılış 4:10 (Habilin qanı), Yaradılış 18:20-21 (Sodom və Homorraya qarşı qalxan fəryad), Çıxış 2:23 (İsrail övladlarının Misirdə iniltisi).

## 7- Bizim zəmanədə öz pulunu başqalarından sui-istifadə etməklə qazanan varlılar varmı?

[Qoy gənclər gündəlik xəbərlərdən bir-neçə misal çəksinlər.] Bu böyük məbləğlərdə pul mənimsəyən sahibkarlar və siyasətçilər ola bilər. Bizim zəmanədə fırıldaqçı fərasətli və ehtiyatlı ola bilər. Amma bu Allahın ədalətindən qaçmayacaq. [Siz bu məsələ ilə əlaqəsi olan qəzet parçasını gətirə bilərsiz.]



## Üsul: Hadisənin araşdırılması

[Siz gəncləri qruplara bölə bilərsiz. Sonra onlar Qeytsin həyatı haqda oxuyub fikirləri oyadan suallara cavab verə bilər.]

Vilyam H. Qeyts "Microsoft Corporation" şirkətinin sədridir. O 1955-ci ildə Sietl şəhərində anadan olmuşdu. 13 yaşı olanda o proqramlaşdırmanın ləzzətini aşkar etdi. Harvard Universitetində o "basic" (beysik) proqramlaşdırma dilinin versiyasını inkişaf etdirdi və 1975-ci ildə Microsoft şirkətini başladı. Yaxın zamanda bu şirkət dünyada proqramlaşdırma və kömpyuter xidmətləri sahəsində bərabəri olmayan lideri oldu. Beləcə Qeyts dünyanın ən varlı adamlarından biri oldu. Onun var-dövləti 50 milyard dollara qiymətləndirilir. O və onun həyat yoldaşı təhsil və SPİD-ə qarşı humanitar proyektlərinə milyonlarla dolları qoyan təşkilatının sahibləridir. Başqa şeylərlə yanaşı onlar çalışır ki, daha kasıb ölkələrdə də kompyuterlər və internet olsun.

Müasir dövrün bu zəngin adamı haqqında sən nə düşünürsən? Onun var-dövlətini istəyərdin? Bunun xeyri və təhlükəsi nə olardı? Zəbur 37:7-yə görə biz "öz yolunda uğur qazanan insanla" üzləşəndə biz nəyi etməliyik və nəyi etməməliyik?

# Sadiq qalan üçün mükafat

## 8- Sonra Yaqub imanlılarla danışır. Son iki ayədə o hansı xəbərdarlıqları edir?

Onlar səbirli olmalıdır [iş vərəqi]. O günlərdə məsihçiləri tez-tez təhqir edirdilər və onlarla pis rəftar edirdilər. Buna görə Yaqub onları ruhlandırır ki, gözləsinlər, təslim olmasınlar və öz ümidinə sadiq qalsınılar: onlar bilir ki, Rəbb qayıdacaq!



## Üsul: Cədvəli tamamla

7-ci ayədə Yaqub Məsihin qayıdışını gözləyən məsihçiləri əkinçi ilə müqayisə edir. Bu müqayisəni göstərmək üçün iş vərəqində olan cədvəli doldur. [Qeyd: Yaqubun istifadə etdiyi söz torpaqda işləyən insanı göstərir: bu fermer, üzümçü yaxud bağban ola bilər.]

| Əkinçi | Məsihçi |
|---|---|
| ... işləməli və əkməlidir. | ...Allaha xidmət etməli və Müjdəni yaymalıdır. |
| ... göyə diqqətlə baxır və yağışı gözləyir. | ... öz ümidini Rəbbin qayıdışına qoyur. |
| ... qiymətli məhsulunu gözləyir. | ... Allah tərəfindən şərəfləndirəcək və mükafatlandıracaq. |

Fələstində payızın birinci yarısında və baharın əvvəlində yağış torpağı sulayırdı. Belə leysanlar tək-tük olurdu, çox vacib idi və insanlar onları çox gözləyirdi (Yeremya 5:24). Eyni cür biz Rəbbin qayıdışını səbirsizliklə gözləyirik.

## 9- İmanlı Rəbbin gəlişini necə hazırlaya bilər?

Başqa şeylərlə yanaşı Müjdəni yaymaqla [iş vərəqi]. Allah hər bir insanı sevir və heç kimin məhv olmasını istəmir (2 Peter 3:9). Əgər sən Xilaskarı gözləyənlərdən birisənsə, yadında saxla ki, bu fəaliyyətsiz gözləmə olmamalıdır. Məhsulun Sahibi sənin işləməyini istəyir. Sənin ailəndə Rəbbi tanımayan üzvlər varmı? Rəbbin sənin üçün nə etdiyini danışmaq üçün bir dost haqqında düşünə bilərsənmi? İmanını bölüşmək üçün Allahın sənə verdiyi imkanlarını gözlə. Əlindən gəldiyi hər şeyi et ki, Məsih qayıdanda onlar da sevinsin! Həyat Kəlamını səp və "Payız və Bahar yağışını" gözlə!

## 10- Rəbb qayıdanda imanlı hansı "mükafatı" alacaq?

Bunun o qədər tərəfləri var ki, bu gün hamısını nəzərdən keçirə bilməyəcəyik. Onlardan bəziləri bunlardır:

2 Timotey 4:8: onun salehliyi əbədi olacaq.

2 Saloniklilərə 1:7: o rahatlıqdan zövq alacaq.

2 Timotey 2:12: Məsihlə səltənət edəcək.

Daniel 12:3: o ulduzlar kimi əbədi parlayacaq.

Məsih qayıdanda hazır olsan, bu xoşbəxtliyi əldə edəcəksən.

## 11- Sonuncu ayədə Yaqub Rəbbin gəlişi haqqında deyir ki, Rəbbin "zühuru yaxındır". Amma biz təxminən 2000 il gözləyirik! Biz Yaqubun bu sözlərini necə izah edə bilərik?

Rəbbin gəlişi yaxındır və bu o deməkdir ki, bu hər hansı bir zaman baş verə bilər [iş vərəqi]. Məşğələnin əvvəlində danışdığımız tufan misalını yada salın. Biz dedik ki, tufanın yaxınlaşmasını onun gəlişindən xəbər verən çoxlu əlamətlərdən və ağırlaşmış mühitdən bilirik. Amma o başlamazdan və üstümüzə ağır leysan yağmazdan qabaq bir-neçə saat keçə bilər. İldırımın ilk səsi bizi hoppandıra bilər. Eyni cür, biz Rəbbin gəlişinin gününü və saatını bilmirik. Bizim üçün ən vacib olan hazır olmaq və sığınacaq tapmaqdır. [Nəzərdən keçirtmək üçün başqa maraqlı bir mətn: 2 Peter 3:4-10; Mark 13:32-33; Luka 12:40.]

## 12- Sən Məsihin qayıdışına hazırsan?

Bu sual üzərində çox düşün. Bəlkə sən bizim bu məşğələnin əvvəlində danışdığımız insanlar kimisən, hansılar pula olan sevgisi ilə çəkilib aparılıblar, hansılar ki, xarici görünüşləri ilə məftun olurlar və hansılar ki. öz seçimlərinin onları haralara gətirib çıxaracaqlarını dərk etmirlər.

Romalılara 3:23-24: "Hamı günah işlətmiş və Allahın izzətindən məhrum qalmışdır. Onlar Onun lütfü ilə, İsa Məsihin verdiyi nicatla bəraəti müftə aldılar." Sən Allahın ənamını əldə etmək istəyisən? Sən möhtəşəm gün üçün hazır olmaq və Allahın ehtişamına daxil olmağa buraxılmaq istəyirsən? Öz günahından üz döndər və bundan sonra Məsih üçün yaşa. Onda sən əmin olacaqsan ki, İsa sənin üçün qayıdacaq!



## Yekun: Zəlzələ

Kaliforniyada tez-tez zəlzələlər olur. Bu səbəbə görə ata öz uşaqlarına deyirdi ki, yatmazdan qabaq öz ayaqqabılarını və fənəri yatağın altına qoysunlar. Yer tərpənəndə pəncərələr darmadağın olurdu və işıqlar sönürdü. Ayaqqabıların sayəsində uşaqlar sınmış şüşənin üstündən yeriyə və fənərin işığında qaranlıqda yol tapa bilirlər. Hər uşaq hazır olmalı idi! Sən də Məsihin qayıdışına hazır olmalısan!

# Məsihin qayıdışı

## Yaqub 5:1-8

1 GƏLIN indi, ey varlılar, başınıza gələcək fəlakətlərdən ötrü ağlayın və fəryad edin!

2 Var-dövlətiniz çürüyüb, paltarlarınızı da güvə yeyib.

3 Qızıl və gümüşünüz paslanıb və onların pası sizə qarşı şəhadət olacaq və ətinizi od kimi yeyəcək. Siz son günləriniz üçün sərvət toplayıbsınız!

4 Budur, tarlalarınızı biçən işçilərdən hiylə ilə gizlətdiyiniz əmək haqqı fəğan edir. Biçinçilərin fəryadı Səmavi Qüvvələrin Rəbbinin qulaqlarına çatdı!

7 Beləliklə, ey qardaşlar, Rəbbin gəlişinə kimi səbirli durun. Budur, əkinçi ilk və son yağıntını alıncayadək, torpaqdan qiymətli məhsulu səbirlə gözləyir.

8 Siz də səbirli olun, ürəklərinizi möhkəmlədin, çünki Rəbbin gəlişi yaxındır.

## Hökm



4-cü fəsildə Yaqub varlı ticarətçilərə müraciət etdi. İndi o kimə müraciət edir?

______________________________

Niyə görə bu varlı adamlar ağlayıb fəryad etməli idi – ayə 1?

______________________________

Onların var-dövləti çürüyüb, güvə yeyib, paslanıb

o deməkdir ki,______________________

Onların sərvəti onlara qarşı şəhadət olacaq və ətini od kimi yeyəcək. Bu o deməkdir ki,

______________________________

______________________________

Yaqub varlı mülkədarların mühakimə olunmasının iki əsas səbəbini deyir. 3-cü ayəyə görə birinci səbəb nədir?

______________________________

Onları mühakimə etmək üçün və onların vəziyyətini daha pislədən ikinci səbəb nədir – ayə 4?

______________________________

Biçinçilərin fəryadı Rəbbin qulaqlarına çatdı deməklə Yaqub nəyi nəzərdə tuturdu?

___

Vilyam H. Qeyts "Microsoft Corporation" şirkətinin sədridir. O 1955-ci ildə Sietl şəhərində anadan olmuşdu. 13 yaşı olanda o proqramlaşdırmanın ləzzətini aşkar etdi. Harvard Universitetində o "basic" (beysik) proqramlaşdırma dilinin versiyasını inkişaf etdirdi və 1975-ci ildə Microsoft şirkətini başladı. Yaxın zamanda bu şirkət dünyada proqramlaşdırma və kömpyuter xidmətləri sahəsində bərabəri olmayan lider oldu. Beləcə Qeyts dünyanın ən varlı adamlarından biri oldu. Onun var-dövləti 50 milyard dollara qiymətləndirilir. O və onun həyat yoldaşı təhsil və SPİD-ə qarşı humanitar proyektlərinə milyonlarla dolları qoyan təşkilatın sahibləridir. Başqa şeylərlə yanaşı onlar çalışır ki, daha kasıb ölkələrdə də kompyuterlər və internet olsun.

Müasir dövrün bu zəngin adamı haqqında sən nə düşünürsən? Onun var-dövlətini istəyərdin? Bunun xeyri və təhlükəsi nə olardı? Zəbur 37:7-yə görə biz "öz yolunda uğur qazanan insanla" üzləşəndə biz nəyi etməliyik və nəyi etməməliyik?

# Mükafat

Sonra Yaqub imanlılarla danışır.  Son iki ayədə o hansı xəbərdarlıqları edir?

___

| Əkinçi | Məsihçi |
|---|---|
| ... işləməli və əkməlidir. | |
| ... göyə diqqətlə baxır və yağışı gözləyir. | |
| ... qiymətli məhsulunu gözləyir. | |

İmanlı Rəbbin gəlişini necə hazırlaya bilər?

___

Rəbb qayıdanda imanlı hansı "mükafatı" alacaq?

2 Timoteyə 4:8 ___

2 Saloniklilərə 1:7 ___

2 Timoteyə 2:12 ___

Daniel 12:3___

Sonuncu ayədə Yaqub Rəbbin gəlişi haqqında deyir ki, Rəbbin "zühuru yaxındır".  Amma biz təxminən 2000 il gözləyirik! Biz Yaqubun bu sözlərini necə izah edə bilərik?

___

Sən Məsihin qayıdışına hazırsan?

# Dua

## Yaqub 5:13-18

**Məqsədlər**

Gənc imanlılar

- başa düşəcəklər ki, dua onlara Allahla yaxın münasibətləri əldə etməyə imkan/izin verir.
- dərk edəcəklər ki, dua imanla ediləndə effektiv olur.
- qabaqda gələn günlərdə daha çox dua etməyə çalışacaqlar – xüsusilə xəstələr üçün.

Xilas olmamış uşaqlar başa düşəcəklər ki, dua etmək şərəfindən zövq almaq üçün onlar Rəbb İsaya iman edib Allahın övladları olmalıdırlar.

### Giriş

[Gənclərə iş vərəqlərini paylayın və xahiş edin ki, bu iki suala cavab versinlər:]

Çətinliklə üzləşəndə sənin birinci reaksiyan nədir? Bir ya iki kvadratı işarə et.

o Mən problemi özüm həll etməyə çalışıram.
o Mən Allahdan xahiş edirəm ki, mənə kömək etsin.
o Mən valideynlərimdən məsləhət istəyirəm.
o Dostuma zəng edib onunla bu haqda danışıram.

Bəs başına yaxşı bir iş gələndə sənin birinci reaksiyan nədir? Bir ya iki kvadratı işarə et.
o Mən təkbaşına xoş xəbərdən zövq alıram.
o Mən dostlarımla sevinirəm.
o Mən tez valideynlərimə deyirəm.
o Allaha dərin minnətdarlığımı bildirirəm.

Çətinliklərimiz olanda hərdən biz Allahdan kömək istəmək əvəzinə gözləməyə meylliyik. Eyni yolla sevinməyə səbəbimiz olanda, biz hərdən Ona xeyir-dualarına görə çox sağ ol deməyə unuduruq. Bu gün araşdıracağımız mətn Allahın övladlarını duaya birinci yer verməyə ürəkləndirəcək!

### Müqəddəs Kitabdan oxumaq üçün mətn: Yaqub 5:13-18

13 Aranızda məşəqqət çəkən varmı? Qoy dua etsin. Şad olan varmı? Qoy mahnı oxusun.

14 Aranızda xəstə olan varmı? Qoy imanlılar cəmiyyətinin ağsaqqallarını çağırtsın. Onlar da Rəbbin adı ilə üzərinə yağ sürtərək onun üçün dua etsinlər.

15 Və imanlı dua xəstəni xilas edər. Rəbb onu ayağa qaldırar və əgər o adam günah işlətmişsə, əfv olunar.

16 Beləliklə, günahlarınızı bir-birinizə etiraf edin və bir-biriniz üçün dua edin ki, şəfa tapasınız. Saleh adamın duası çox güclü və təsirlidir.

17 İlyas, duyğuları bizimkinə bənzər bir adam idi və sə'ylə dua etdi ki, yağış olmasın. Və yer üzünə üç il altı ay yağış yağmadı.

18 Bir də dua etdi və göy yağış yağdırdı. Torpaq da öz bəhrələrini yetişdirdi.

## Hər vəziyyətdə dua edin

### 1- Bu parçanı araşdırmağa başlamazdan qabaq duanın nə olduğunu deyə bilərsənmi?

Bu Allahla danışmaq deməkdir [iş vərəqi]. Dua bizə hər gün Onunla yaxın münasibətlərdə qalmağa kömək edir. İmanlının böyük üstünlüyü odur ki, o sərbəst Allahla danışa bilər. Atanın qulağı hər bir balaya tərəf yönəlib.

Sən Allahın ailəsinə aidsən? Yəhya 1:12 uyğun olaraq Rəbb Onu qəbul edib Onun adına iman edənlərə Allahın övladları olmaq haqqını verir. Əgər sən bunu etmisənsə, səni Allahdan ayıran günah maneəsi aradan qaldırılıb və sən Atan olan Allahla şəxsi münasibətlərindən zövq ala bilərsən.

### 2- Hansı vəziyyətlərdə Yaqub bizi dua etməyə həvəsləndirir – 13 və 14-cü ayələr?

Əzab çəkəndə, şadlananda yaxud xəstə olanda [iş vərəqi]. Biz hər vəziyyətdə Rəbbə üz tutmalıyıq. Gəlin Ona öz narahatçılıqlarımızı və ehtiyaclarımızı danışmaqda tərəddüd etməyək. Heç bir problem Allahın diqqəti üçün həddindən artıq balaca deyil və həll etmək üçün Allaha həddindən artıq böyük deyil. Amma gəlin biz xoşbəxt olanda da Onun yanına gələk. O zaman Yaqub mətnində təklif etdiyi kimi bizim duamızda tərif və minnətdarlıq olacaq. (Mahnı oxuma və dua yaxından birləşən başqa parça 1 Korinflilərə 14:15-dir).

16 yaşı +

Yaqubun hər vəziyyətdə dua etmək çağırışı Müqəddəs Yazıların başqa yerlərində də təkrar olunur: Zəbur 50:14-15,23; 1 Saloniklilərə 5:17; Efeslilərə 6:18-20.

### 3- Sən çətinlikdə olanda və həm də xoşbəxt olanda Allahla danışırsanmı?

Bəzi məsihçilər ancaq böhranla üzləşəndə dua edirlər. Onlar düz edirlər ki, Rəbbi çağırırlar, amma yadında saxlamalıdırlar ki, dua yalnız fövqəladə hallarda “SOS” deyil. Bu Atamızla yaxın münasibətlərdə olmaq deməkdir. Biz öz günlərimizi Onunla yaşaya, sevincimizi və kədərimizi Onunla bölüşə bilərik. Həmçinin dua vasitəsilə biz Ona güvənməyə çalışırıq və izin veririk ki, O bizi idarə etsin.

[Yaqub bizi hər vəziyyətdə şəxsi dua etməyə ruhlandırandan sonra bir yerdə, xüsusilə də xəstə adam üçün dua etməyinin dəyərini vurğulayır. O 15 və 16-cı ayələrdə mübahisəli mövzular haqda deyir. Biz buna dərindən baxmayacayıq.]

## Xəstə üçün dua et

### 4- 14-cü ayəyə görə xəstə insan nə etməlidir?

Məbədin ağsaqqallarından xahiş etsin ki, onun üçün dua etsinlər [iş vərəqi]. Ağsaqqallar yerli məbədin üzvlərinin qayğısına qalırdı. Xəstə insan onlardan kömək istəyəndə bu təbii idi ki, onlar bir yerə yığışıb o insan üçün dua edirdi. (Orijinal mətndə 14-cü ayə deyir ki, onlar xəstənin üzərində dua edirdi. Dua zamanı onlar, guman ki, əllərini xəstənin üzərinə qoyurdu. )



### Üsul: Düzgün kvadratı işarə et

14-cü ayənin ikinci hissəsinə uyğun olaraq, ağsaqqallar xəstə adam üçün dua etməzdən qabaq onun üstünə yağ sürtürdülər. Gəlin bunun mənasını anlamağa çalışaq. Aşağıda verilən izahları özün üçün oxu və sənin fikrincə ən uyğun gələni işarə et.

o Yağın istifadəsi Müqəddəs Kitabın başqa heç bir yerində göstərilmir və izah olunmur. [Bu kvadrat işarə olunmamalıdır. Mark 6:13-də deyilir ki, xəstə sağalsın deyə ona yağ sürtülürdü. Həmçinin Əhdi-Ətiqdə yağ tez-tez sürtülürdü.]

o Yağ dərman kimi istifadə olunurdu. [Yeşaya 1:16 və Luka 10:34 kimi ayələr yada salır ki, yağ tez-tez yaraları sağaltmaq üçün istifadə olunurdu. Amma bunu ya xəstənin özü, yaxud da onun dostu edə bilərdi. Beləliklə, yağın bu cür istifadəsi ağsaqqalların rəmz olaraq yağı xəstəyə sürtməkdən çox fərqlidir.]

o Ağsaqqallar xəstəyə yağ sürtəndə onu ayırırdılar, Allahın qayğısına həvalə edirdilər. [Çıxış 40:15, 1 Şamuel 10:1 və Əhdi-Ətiqin çoxlu başqa parçalarına əsasən insanı xüsusi məqsədə görə təqdis etmək üçün yağla məsh edirdilər. Beləliklə biz guman edirik ki, Əhdi-Cədid dövrünün məbədində ağsaqqallar həmin şeyi ediblər ki, xəstə insanı Allah üçün ayırsınlar və Ondan xahiş etsinlər ki, o insana xüsusi diqqət versin.

Bu günlərdə də bu şey çoxlu məbədlərdə istifadə olunur. Şəfa üçün dua edəndə bunu əlavə etmək yaxşıdır.]

o Yağda şəfa verən "sehrli təsir" var. [Əlbəttə, iş bunda deyil. Biz ehtiyatlı olmalıyıq ki, yağın istifadəsini Yaqubun yağ haqda yazdığı kontekstdən ayırmayaq: bu yerli məbədin xəstəliyə qarşı reaksiyasıdır. Məbəd öz adamlarını xəstənin yanına göndərir ki, ona yağ sürtsünlər və dua etsinlər. Duaya xüsusi əhəmiyyət verilir. Yalnız Allah şəfa verə bilər.]

## 5- Duaya cavab olaraq Allah xəstə insan üçün nə edə bilər - ayə 15?

Onu xilas edər və ayağa qaldırar [iş vərəqi]. Allah bizim bədənimizin hər bir molekulunu çox yaxşı bilir.
O qarışıb şəfa verə bilər. [Adətən "xilas" sözü ruhani azadlıq üçün istifadə olunur, amma Yaqub çox yəqin ki, burda onu fiziki şəfa haqqında danışmaq üçün istifadə edir.]

Amma Allah istəyir ki, biz Onun işində iştirak edək. Biz Ona lazım olmasaq da, O istəyir ki, biz Onunla bir yerdə işləyək. O bizi seçib ki, biz Onunla bir yerdə işləyək. Bizim rolumuz şəxsən və yerli məbədlə bir yerdə dua etməkdir. Əgər bizim xahişlərimiz Onun iradəsinə uyğundursa, O müdaxilə edəcək və xəstəyə şəfa verəcək. Siz dərk edirsiz ki, sizin dualarınızın çox böyük təsiri var?

## 6- Yaqub bizə deyir ki, biz imanla dua etməliyik. Bu nə deməkdir?

Biz inanmalıyıq ki, Allah hər şeyə qadirdir, amma həm də Onun hikmətinə güvənməliyik [iş vərəqi]. Birinci fəsildə Yaqub bizi cəsarətlə dua etməyə həvəsləndirir ki, şübhə etməyək, amma Allahın işə qarışacağına əmin olaq. Amma biz həmçinin Allahın hədsiz hikmətini tanımalıyıq. Hərdən bizim istəklərimiz Onun iradəsinə uyğun deyil (2 Korinflilərə 12:7-9). Yalnız O nəyin ən yaxşı olduğunu bilir.



## İllüstrasiya: Başsındıran

Başsındıranı xoşlayırsan? Hərdən sən ilişib qalırsan. Sən bir çox hissələrin arasında müəyyən bir hissəni axtarırsan. Uyğun gələni tapmaq üçün sən hər hissəni bir-bir yoxlamalısan. Nəhayət sən düzgün formalı hissəni tapırsan. O gözəl şəkilə uyğun gəlir və sənə başsındıranı qoşmağa davam etməyə imkan verir.

Eyni yolla bizim dua həyatımız da hərdən soyumuş ola bilər. Biz başa düşürük ki, dualarımıza cavab almamışıq. Amma Allah istəyir ki, biz mətanətli olaq və Onun köməyinə güvənək. Yaqubun dediyi "imanla edilən dua" Allahın iradəsinə tamamilə uyğun gəlir və cavab alır.

## 7- Sonra Yaqub şəfa almağa  mane olan şey haqda deyir. Bu maneə nədir və onu necə aradan qaldıra bilərik?

Günah – biz onu etiraf etməliyik [iş vərəqi]. Müqəddəs Kitab bizə öyrədir ki, xəstəlik günaha görə ola bilər [ayrıca 1 Korinflilərə 11:27-30 bax]. Amma iş həmişə bunda deyil [Yəhya 9:3]. Elə gəlir ki, 15-ci ayənin sonunda Yaqub xüsusi bir vəziyyətdən danışır. Əgər xəstə insan günah işlədibsə, o duada Rəbbə dönüb Onun əfvini əldə edə bilər. Bu bizə göstərir ki, biz xəstə olanda öz ruhani həyatımızı yoxlamalıyıq və günah etdiyimizi başa düşsək Rəbdən günahlarımıza görə bağış diləməliyik.

16-cı ayədə günahları bir-birinə etiraf etməyi qeyd edilir. Əgər biz qardaşımıza qarşı günah işlətmişiksə,  biz öz günahımızı etiraf etməliyik və ondan bağış istəməliyik. (Qeyd: "bir-birinə etiraf" etmək yalnız şəxsi məsələ deyildi. Erkən məbəddə məsihçilər öz günahlarını toplantı zamanı etiraf edərdi, xüsusilə də əgər o günah bütün cəmiyyətə təsir edibsə. )



## Üsul: Hadisənin araşdırılması

(Siz gəncləri iki qrupa bölə bilərsiz. Onlar Coninin həyatının qısa məzmunu oxuyacaq və iki suala cavab verəcək.)

Coni Erikson gənc məsihçi qız idi. O idmanı sevirdi və məktəbdə yaxşı oxuyurdu. O tez-tez Rəbdən diləyirdi ki, ona Rəbbi tanımağa və Ona daha yaxşı xidmət etməyə kömək etsin. Bir gün o Çispik körfəzində (ABŞ) suyun altına girdi. Onun boyunu qayaya dəydi və o iflic oldu. İnsan sözünə baxanda onu sağaltmaq mümkün deyildi. Məsihçilər bir yerə yığışdılar ki, onu yağ ilə məsh etsinlər və Allaha o yenidən yerisin deyə yalvarsınlar, amma o iflic olaraq qaldı. Bu sınaq zamanı onun Allahla münasibəti daha dərin oldu və onun Allaha xidmət etməyə çoxlu imkanları oldu. Onu konfranslara dəvət etdilər ki, o öz şəhadətliyini versin və o indi bütün dünyada tanınmış kitabları yazıb.

1- Rəbb Coninin hansı duasına cavab verdi və necə?

2- Xəstəlik kimi imtahanlardan keçəndə bizim münasibətimiz necə olmalıdır?

---

# İlyas peyğəmbər kimi dua edin

## 8- Duanın necə effektiv olduğunu göstərmək üçün Yaqub 17-18-ci ayələrdə İlyas peyğəmbəri misal gətirir. Sən onun haqqında nə bilirsən?

Padşahlar kitabı bizə göstərir ki, İlyas İsrailin günahını ifşa etmək üçün Allahın elçisi idi və heyrətli möcüzələri yaratdı. Onun yerdəki həyatı qeyri-adi yolla sona çatdı: o alovlu arabada Göylərə götürüldü. Bununla yanaşı o Allahın böyük duaçısı idi.

## **9-** Yaqub bizə deyir ki, İlyas yağışın olmaması üçün dua etdi, sonra isə o dua etdi ki, yağış yenidən yağsın. Niyə görə biz Allahdan belə şeylər istəməliyik? 1 Padşahlar 17:1; 18:1.

O bilirdi ki, bu Allahın İsraili qayda-qanununa öyrətmək üçün istifadə edəcəyi vasitə idi [iş vərəqi]. Padşah Axav "özündən əvvəl olanların hamısından çox Rəbbin gözündə pis olan işlər etdi" (1 Padşahlar 16:30). Buna görə Allah qərara gəldi ki, üç il altı ay yağış göndərməyib onu cəzalandırsın. İlyas Allahın iradəsini bilirdi. Onun duası Allahın Sözündən götürülmüşdü və Allahın izzəti üçün nəzərdə tutulurdu. [Bununla yanaşı gedən ayələr: Matta 26:39; 1 Yəhya 5:14]. Biz dua edəndə dualarımızı Allah haqqında olan biliyimizə və Onun bizə görə olan iradəsinə uyğunlaşdırmalıyıq. Allahın Sözü dualarımızı qurmaq üçün formadır.

## 10- İlyas necə dua etdi və bunun nəticəsi nə oldu? Həmçinin 1 Padşahlar 18:41-46 bax.

O inadla dua etdi və duanın cavabı əzəmətli idi [iş vərəqi].
1 Padşahlar 18-ə uyğun olaraq İlyas öz başını dizlərinin arasına qoydu ki, heç nə onun fikrini Allahdan yayındırmasın. O öz qulluqçusunu səkkiz dəfə dağa göndərdi ki, dənizə baxsın və Allahın onun duasına olan cavabının ilk əlamətini müşahidə eləsin. Qulluqçu nəhayət uzaqda balaca buludu gördü. Bu hekayənin sonu tamamilə dərin təəssürat doğurandır: üç ildən artıq davam edən quraqlıqdan sonra yerə güclü yağış yağdı. Biz mətanətlə və imanla dua etməyə öyrənməliyik. O zaman bizim həyatımız və ətrafda olanlar böyük xeyir-dua alacaq.

## 11- Yaqub bizə 17-ci ayədə hansı təfsilatı verib göstərir ki, duanın gücü bizdən də asılıdır?

İlyas bizim kimi duyğuları olan insan idi [iş vərəqi]. Sən də duanın gücünü duya bilərsən. Bu ancaq bir-neçə iman qəhrəmanları üçün deyil. Vacib olan odur ki, sən Allahın iradəsini yerinə yetirmək və Ona izzət vermək istəyəsən. O zaman sən duanın necə güclü və effektiv ola biləcəyini aşkar edəcəksən.



## Yekun

Bu dərs sənin və mənim üçün öz dua həyatımızı yoxlamaq üçün fürsətdir. Sən Rəblə yaxın münasibətlərdə yaşayırsan? Xəstə üçün dua edirsən? Duanın böyük təsirini dərk etmisən? Gəlin bir-neçə dəqiqə sakitlikdə oturaq və Allaha deyək ki, Onu daha yaxından tanımaq və Onun ürəyinə yaxın yaşamaq istəyirik. [Sakit vaxt.]



## Əlavə: Kosmik gəmilərə müraciət

Təsəvvür et ki, sən Beynəlxalq Kosmos Mərkəzində işləyirsən. Sizin radiolakatorlarınız düz yer kürəsinə tərəf gələn çoxlu kosmik gəmiləri tanıdı. Bu çox mürəkkəb gəmilər bizimkindən də çox inkişaf etmiş mədəniyyətdən gəlir. Sən narahat olursan və onlara xəbər göndərməyə qərar verirsən. Bəs onlar buna necə yanaşacaq?

1- Bu təsəvvür etdiyimiz vəziyyət duaya necə oxşayır?

2- Bəs tamamilə necə fərqlənir?

Biz də dua edəndə bizdən hədsiz dərəcədə böyük və hikmətli olan Şəxslə danışırıq. Amma biz bilirik ki, Allah bizi eşidir, başa düşür və bizim üçün ən yaxşısını istəyir. Biz öz sevinc və kədərimizi Onunla bölüşə bilərik.

# Dua

## Yaqub 5:13-18

Çətinliklə üzləşəndə sənin birinci reaksiyan nə olur? Bir ya iki kvadratı işarə et.
- o Mən özüm problemi həll etməyə çalışıram.
- o Mən Allahdan diləyirəm ki, mənə kömək etsin.
- o Mən valideynlərimdən məsləhət istəyirəm.
- o Dostuma zəng edib onunla bu haqda danışıram.

Bəs başına yaxşı bir iş gələndə sənin birinci reaksiyan nədir? Bir ya iki kvadratı işarə et.
- o Mən təkbaşına xoş xəbərdən zövq alıram.
- o Mən dostlarımla sevinirəm.
- o Mən tez valideynlərimə deyirəm.
- o Allaha dərin minnətdarlığımı bildirirəm.

**13** Aranızda məşəqqət çəkən varmı? Qoy dua etsin. Şad olan varmı? Qoy mahnı oxusun.

**14** Aranızda xəstə olan varmı? Qoy imanlılar cəmiyyətinin ağsaqqallarını çağırtsın. Onlar da Rəbbin adı ilə üzərinə yağ sürtərək onun üçün dua etsinlər.

**15** Və imanlı dua xəstəni xilas edər. Rəbb onu ayağa qaldırar və əgər o adam günah işlətmişsə, əfv olunar.

**16** Beləliklə, günahlarınızı bir-birinizə e'tiraf edin və bir-biriniz üçün dua edin ki, şəfa tapasınız. Saleh adamın duası çox güclü və tə'sirlidir.

**17** Ilyas, duyğuları bizimkinə bənzər bir adam idi və sə'ylə dua etdi ki, yağış olmasın. Və yer üzünə üç il altı ay yağış yağmadı.

**18** Bir də dua etdi və göy yağış yağdırdı. Torpaq da öz bəhrələrini yetişdirdi.

## Hər vəziyyətdə dua edin

Bu hissəni araşdırmağa başlamazdan qabaq mənə duanın nə olduğunu deyə bilərsinizmi?

---

Yaqub bizi hansı vəziyyətlərdə dua etməyə ilhamlandırır - 13 -14 ayələr?

---

## Xəstə üçün dua edin

14-cü ayəyə görə xəstə olan nə etməlidir?

---

Niyə görə ağsaqqallar xəstə üçün dua etməzdən qabaq onun üzərinə yağ sürtürdülər – 14-cü ayənin ikinci hissəsi?

- o Yağın istifadəsi haqqında Müqəddəs Kitabın başqa heç bir yerində yazılmayıb yaxud izah olunmayıb.
- o Yağ dərman kimi idi.
- o Ağsaqqallar xəstəyə yağ sürtürdülər ki, onu ayırsınlar, Allahın qayğısına tapşırsınlar.
- o Yağda şəfa verən "sehrli təsir" var.

Duaya cavab olaraq Allah xəstə insan üçün nə edə bilər - ayə 15 ?

Yaqub bizə deyir ki, bizim duamız iman duası olmalıdır. Bu nə deməkdir?

Sonra Yaqub şəfa almağa maneə olan şey haqda deyir. Bu maneə nədir və biz ona necə üstün gələ bilərik?

Coni Erikson gənc məsihçi qız idi. O idmanı sevirdi və məktəbdə yaxşı oxuyurdu. O tez-tez Rəbdən diləyirdi ki, ona Rəbbi tanımağa və Ona daha yaxşı xidmət etməyə kömək etsin. Bir gün o Çispik körfəzdə (ABŞ) suyun altına girdi. Onun boyunu qayaya dəydi və o iflic oldu. İnsan sözünə baxanda onu sağaltmaq mümkün deyildi. Məsihçilər bir yerə yığışdılar ki, onu yağ ilə məsh etsinlər və Allaha o yenidən yerisin deyə yalvarsınlar, amma o iflic olaraq qaldı. Bu sınaq zamanı onun Allahla münasibəti daha dərin oldu və onun Allaha xidmət etməyə çoxlu imkanları oldu. Onu konfranslara dəvət etdilər ki, o öz şəhadətliyini versin və o indi bütün dünyada tanınmış kitabları yazıb.



1- Rəbb Coninin hansı duasına cavab verdi və necə?

2- Xəstəlik kimi imtahanlardan keçəndə bizim münasibətimiz necə olmalıdır?

# İlyas peyğəmbər kimi dua edin

Yaqub bizə deyir ki, İlyas yağışın olmaması üçün dua etdi, sonra isə o dua etdi ki, yağış yenidən yağsın. Niyə görə biz Allahdan belə şeylər istəməliyik? 1 Padşahlar 17:1; 18:1.

İlyas necə dua etdi və bunun nəticəsi nə oldu? Həmçinin 1 Padşahlar 18:41-46 bax.

Yaqub bizə 17-ci ayədə hansı təfsilatı verib göstərir ki, duanın gücü bizdən də asılıdır? ______________